# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

### Milli mətbuat 150: bədbəxt hərflər, nakam sözlər, talesiz durğu işarələri...




10

№ 095 (7263)
SƏS
3 iyun 2025-ci il.
Qiyməti 60 qəpik

## Beynəlxalq enerji əməkdaşlığında Azərbaycanın rolu




2

*Prezident İlham Əliyev: "Bakı Enerji Həftəsi" artıq yeni yanaşmaların və beynəlxalq enerji dialoqunun formalaşdığı nüfuzlu bir forum kimi tanınır"*

# Paşinyan kilsəyə qarşı



12

### Bütün xəstəliklərin təməli – yod çatışmazlığı



13

### DİQQƏT: Vətəndaş yeni şəxsiyyət vəsiqəsini alarkən nə etməlidir?



9

### Başına daş salınmış MƏKTƏB...



6

### Neymar əl ilə qol vurdu, meydandan qovuldu!



16

### Velosipedlə hərəkət: yaşıl dünya və sağlam insan



15

# Beynəlxalq enerji əməkdaşlığında Azərbaycanın rolu

**Prezident İlham Əliyev: "Bakı Enerji Həftəsi" artıq yeni yanaşmaların və beynəlxalq enerji dialoqunun formalaşdığı nüfuzlu bir forum kimi tanınır"**

***Qlobal tədbirlərə yüksək səviyyədə ev sahibliyi edən paytaxt Bakı son dövrlərdə artıq beynəlxalq işgüzar tədbirlərin təşkil edildiyi mərkəz kimi tanınır. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin təşkilinin Azərbaycana həvalə edilməsi ölkənin dünyada beynəlxalq və geniş miqyaslı təbirlərin uğurlu təşkilatçısı statusunu bir daha sübut etmiş oldu.***




Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarını birində bildirdiyi kimi, Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq: "Bizim müstəqil siyasətimiz, prinsipial mövqeyimiz, beynəlxalq hüquqa bağlılığımız, sədaqətimiz və eyni zamanda, ölkə ərazisində suverenliyin bərpa edilməsi bizə olan hörməti daha da artırdı."

Bütün sahələrdə uğurların müəllifi olan Azərbaycan beynəlxalq tədbirlərə də ev sahibliyi etməklə liderlik bacarığını nümayiş etdirir. Artıq Azərbaycan beynəlxalq tədbirlərin mərkəzinə, qlobal layihələrin təşkilatçısına çevrilib. Ölkəmizdə dünyanı daim narahat edən problemlərlə əlaqədar beynəlxalq konfransların təşkil edilməsi, mədəniyyətlərarası siyasi dialoqları ehtiva edən, iqtisadi əməkdaşlığa əsaslanan forumların keçirilməsi Azərbaycanın xarici aləmdəki mövcud nüfuzunun, gücünün göstəricisidir.


















İyunun 2-də paytaxtımız Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi "Caspian Power" və 30-cu Yubiley "Baku Energy Forum"na ev sahibliyi edir. Bakı Enerji Həftəsi dünya ölkələri ilə sıx əməkdaşlığı, dialoqu gücləndirir, eyni zamanda, daha dayanıqlı enerji gələcəyini təmin etməyə kömək edir. Enerji təhlükəsizliyinə nail olmaq hər bir ölkənin qarşısında duran böyük məqsəddir. Bunun üçün dayanıqlı regional əməkdaşlıq zəruridir. Bu gün bütün dünyanın nəzəri yenidən Bakıdadır.

## "AZƏRBAYCANIN ENERJİ İMKANLARI, XÜSUSİLƏ NEFT SEKTORUNDAKI POTENSİALI DÜNYAYA TANIDILDI"

Xatırladaq ki, ilk dəfə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü il mayın 24-də keçirilən "Xəzər Neft və Qaz" sərgisi bundan sonra ənənəvi hal alıb. Ulu Öndərin təşəbbüsü ilə keçirilən sərginin adı o zaman "Xəzər dənizində neft-qaz hasilatına dair sərgi" adlanırdı. Sonralar isə sərgi əhatə etdiyi sahələrə uyğun olaraq adını da dəyişib. Əlavə olaraq hər il baş tutan sərgi ilə yanaşı, eyniadlı Forum da keçirilir. Qeyd edək ki, sərgi və Forum Azərbaycandan Bakıda fəaliyyət göstərən qurumlardan və beynəlxalq şirkətlərdən daim dəstək alıb. "Xəzər dənizində neft-qaz hasilatına dair sərgi" adlı sərgidən sonra Azərbaycanın enerji imkanları, xüsusilə neft sektorundakı potensialı dünyaya tanıdıldı. Bununla da Azərbaycanda neft strategiyasının əsası qoyulmuş oldu. "1994-cü ildə ilk sərgi təşkil olunmuşdur və həmin sərgidən dərhal sonra Azərbaycan beynəlxalq neft şirkətləri konsorsiumu ilə müqavilə bağladı. Daha sonra bu, "Əsrin müqaviləsi" adlandırıldı. O, əslində, regionda geosiyasi və geoiqtisadi vəziyyəti dəyişdirdi". Bu sözləri Prezident İlham Əliyev 30-cu "Caspian Oil and Gas", 13-cü "Caspian Power" və 30-cu "Baku Energy Forum"un rəsmi açılış mərasimində çıxışında deyib. "Bu, Prezident Heydər Əliyevin baxışına uyğun idi", - deyə dövlətimizin başçısı əlavə edib

## "BU GÜN AZƏRBAYCAN SABİT SİYASİ SİSTEMƏ MALİKDİR, İQTİSADİYYATIMIZ İNKİŞAF ETMƏKDƏDİR"

"Əsrin müqaviləsi" görkəmli siyasi və dövlət xadimi, Ümummilli Lider Heydər Əliyevin banisi olduğu Azərbaycanın energetika strategiyasının əsas tendensiyasını müəyyən edən və Azərbaycanı dünyanın neft ixracatçılarından birinə çevirən özül hesab edilir. Belə ki, məhz "Əsrin müqaviləsi" ilə müstəqil Azərbaycanın neft strategiyasının əsası qoyulub. "Əsrin müqaviləsi" Azərbaycanın dünya ölkələri ilə qarşılıqlı əlaqələrinin genişlənməsinə və beynəlxalq mövqelərinin möhkəmlənməsinə güclü təkan verdi, Avropa Birliyinə inteqrasiya olunmasına, əsas dünya ölkələri, ilk növbədə, böyük dövlətlərlə dostluq, strateji əməkdaşlıq münasibətlərinin yaranmasına, həmçinin, inkişafına əlverişli imkan, müsbət zəmin yaratmışdır. Enerji faktoru həm siyasi, həm də, beynəlxalq layihələr baxımından Azərbaycanın siyasi və iqtisadi inkişaf problemlərinin həllində mühüm rol oynayır. Bu çərçivədə müstəqillik qazandıqdan sonrakı dövrdə neft sektorunun inkişafı və xarici şirkətlərlə əməkdaşlıq Azərbaycana böyük iqtisadi töhfə verdi. İlk növbədə, ölkə müasir texnologiyalarla təchiz edilmiş, neft sənayesinin aktivləri yenilənmiş, bu sahənin inkişafına kömək edəcək qurum və təşkilatlar inkişaf etdirilmiş, neft-təbii qaz sənayesinin infrastrukturu modernləşdirilmişdir.

Ardı Səh. 3






# Beynəlxalq enerji əməkdaşlığında Azərbaycanın rolu

Əvvəli-Səh-2

"Bu gün Azərbaycan sabit siyasi sistemə malikdir, iqtisadiyyatımız inkişaf etməkdədir", - deyən Azərbaycan Prezidenti bildirib. Azərbaycanda genişmiqyaslı islahatların həyata keçirildiyini söyləyən dövlətimizin başçısı xarici borcumuzun ümumdaxili məhsulun 7 faizini təşkil etdiyini vurğulayıb.

### "AZƏRBAYCANIN ELEKTRİK ENERJİSİNƏ ARTAN TƏLƏBATINI MƏHZ BƏRPAOLUNAN ENERJİ HESABINA TƏMİN EDƏCƏYİK"

Bildiyimz kimi, Azərbaycanda enerji təhlükəsizliyinə, xüsusilə "yaşıl enerji" siyasətinə münasibətdə uzunmüddətli hədəflər müəyyən edilib. 2030-cu ilədək olan dövrdə Azərbaycan "yaşıl artım" ölkəsinə çevrilməyi və təmiz ətraf mühitə nail olmağı sosial-iqtisadi inkişafa dair milli prioritetlərdən biri kimi müəyyənləşdirib.

Ənənəvi enerji resursları sənayesini inkişaf etməkdə olan yaşıl enerji istiqamətləri ilə birləşdirən Bakı Enerji Həftəsi bu sahədə irəliləyişlərə və ən yaxşı təcrübələrə zəmin yaradır.

"Bizim yaşıl enerji gündəliyimiz çox genişdir. Azərbaycan neft və qaz ölkəsi olmaqla yanaşı, investorlarla bərabər, məhz yaşıl enerjiyə sərmayə qoyub. Bu da bizim məsuliyyətimizi nümayiş etdirir", - deyən Azərbaycan Prezidenti həmçinin bildirib ki, bütün bu yaşıl enerji potensialımız nəticəsində biz Azərbaycanın elektrik enerjisinə artan tələbatını məhz bərpaolunan enerji hesabına təmin edəcəyik.

Son illər Azərbaycanın artan iqtisadi imkanları, yerləşdiyi əlverişli coğrafi mövqeyindən faydalanmaq bacarığı, beynəlxalq aləmə inteqrasiyası onun dünya ölkələri ilə əlaqələrinə müsbət təsir göstərib. Azərbaycan ilə dünya ölkələri arasında ikitərəfli münasibətlər iqtisadi, ticari, enerji, turizm və digər sahələri əhatə edir. Beynəlxalq hüquq normalarına, qarşılıqlı inam və etimada, faydalı əməkdaşlığa əsaslanaraq, xarici siyasətini həyata keçirən Azərbaycanla qarşılıqlı etimad səviyyəsində qurulan diplomatik əlaqələr yüksək bir mərhələdədir. Son 22 il ərzində aparılan xarici siyasət, ölkədə həyata keçirilən sistemli islahatların nəticəsi olaraq xalqın həyatını köklü şəkildə dəyişməsi, 2020-ci ildə İlham Əliyevin qətiyyəti sayəsində torpaqlarımızın




işğaldan azad edilməsi və 2023-cü ilin sentyabrında Xankəndiyə bayrağımızın asılması ölkəmizin imicinin daha da yüksəlməsinə səbəb oldu. Böyük nailiyyətlərin müəllifi olan Prezident İlham Əliyev dünya liderləri arasında seçilən dövlət başçılarından biridir.

Ölkəmizin iqtisadi - maliyyə gücünün artmasına, Azərbaycanın və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə xidmət edən Cənub Qaz Dəhlizi layihəsinin bütün seqmentləri artıq fəaliyyətdədir. Cənub Qaz Dəhlizinin icrası zamanı Azərbaycan boru kəməri ərazisindən keçən ölkələrlə, eləcə də beynəlxalq maliyyə təsisatları, enerji şirkətləri, aparıcı ölkələrin hökumətləri və Avropa Komissiyası ilə çox sıx əməkdaşlıq əlaqələri qurub. Cənub Qaz Dəhlizi Avropa İttifaqı üçün mühüm əhəmiyyət kəsb edir və Azərbaycanın oynadığı rol Avropa İttifaqında qaz təchizatının şaxələndirilməsi səylərimiz baxımından mühüm əhəmiyyət daşıyır. Əlbəttə ki, Cənub Qaz Dəhlizi Avropa İttifaqı üçün mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın oynadığı rol ölkəmizin Avropa İttifaqında qaz təchizatının şaxələndirilməsi səyləri baxımından mühüm əhəmiyyət daşıyır.

### "QLOBAL ENERJİ XƏRİTƏSİNDƏ ÖLKƏMİZİN MÖVQEYİNİN MÖHKƏMLƏNMƏSİNƏ TÖHFƏ VERƏN BU TƏDBİR İLK MİLLİ SƏRGİ BRENDİMİZ KİMİ TARİXƏ DÜŞMÜŞDÜR"

Azərbaycan Prezidentinin əməli fəaliyyətinin, iradəsinin nəticəsidir ki, Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib, qlobal əhəmiyyətli iqtisadi zonalar yaradılıb. Cənub Qaz Dəhlizinin, TANAP layihəsinin istifadəyə verilməsi uğurlu hadisələr sırasındadır. Azərbaycanın təşəbbüsü ilə bölgədə, Avrasiya məkanında həyata keçirilən layihələr xüsusi olaraq vurğulanmalıdır. Müasir dünyada Azərbaycan regionun, Avropanın və ümumilikdə, dünya ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsində xüsusi əhəmiyyət kəsb edən bir ölkəyə çevrilib.

Məlumdur ki, Azərbaycan beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürmüşdür. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.

"Bakı Enerji Həftəsi" isə öz növbəsində enerji sektorundakı aktual məsələlərin müzakirə edildiyi və enerji sənayesində əhəmiyyətli tərəflərin bir araya gəldiyi bir platformadır. "Bakı Enerji Həftəsi" Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə bünövrəsi qoyulmuş "Caspian Oil & Gas" sərgisinin məntiqi davamı kimi formalaşaraq enerji sahəsində nüfuzlu beynəlxalq hadisəyə çevrilmişdir. Enerji diplomatiyasının inkişafına, strateji tərəfdaşlıqlar qurulmasına və qlobal enerji xəritəsində ölkəmizin mövqeyinin möhkəmlənməsinə töhfə verən bu tədbir ilk milli sərgi brendimiz kimi tarixə düşmüşdür". Bu fikirlər Azərbaycan Prezidenti İlham Əliyevin "Bakı Enerji Həftəsi"nin iştirakçılarına müraciətində yer alıb.

Dövlətimizin başçısı bildirib ki, ötən illər ərzində bu təşəbbüs enerji sahəsində qlobal meyillərə uyğun şəkildə genişlənmiş və "Bakı Enerji Həftəsi" formatını almışdır. Ənənəvi enerji mənbələrindən bərpaolunan enerjiyə qədər geniş məzmunda məsələlərin müzakirə edildiyi "Bakı Enerji Həftəsi" artıq yeni yanaşmaların və beynəlxalq enerji dialoqunun formalaşdığı nüfuzlu bir forum kimi tanınır".

Bu tədbir dünya miqyasında enerji təhlükəsizliyi, enerji istehsalı, nəqliyyatı və digər əhəmiyyətli məsələləri müzakirə etmək üçün beynəlxalq nümayəndələri və təşkilatları cəlb edir. "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən tədbirlər, layihələr və konfranslar enerji sahəsində yeni əməkdaşlıqların qurulması, təcrübə mübadiləsi və yeni inkişaf istiqamətlərinin müəyyən edilməsinə kömək edir.

Bu gün Azərbaycan dünyanın enerji təhlükəsizliyində xüsusi çəkisi olan ölkələr sırasında yer alır. Azərbaycan davamlı surətdə enerji təhlükəsizliyinin gücləndirilməsində etibarlı tərəfdaşa çevrilib. Qazın Azərbaycandan Avropaya 2020-ci ildə Cənubi Qaz Dəhlizi vasitəsilə nəql olunmasına başlanıb və Azərbaycan artıq etibarlı enerji tərəfdaşıdır.

Bakı Enerji Həftəsi isə öz növbəsində enerji sektorundakı aktual məsələlərin müzakirə edildiyi və enerji sənayesində əhəmiyyətli tərəflərin bir araya gəldiyi bir platformadır. Bu tədbir dünya miqyasında enerji təhlükəsizliyi, enerji istehsalı, nəqliyyatı və digər əhəmiyyətli məsələləri müzakirə etmək üçün beynəlxalq nümayəndələri və təşkilatları cəlb edir. Bakı Enerji Həftəsi çərçivəsində keçirilən tədbirlər, layihələr və konfranslar enerji sahəsində yeni əməkdaşlıqların qurulması, təcrübə mübadiləsi və yeni inkişaf istiqamətlərinin müəyyən edilməsinə kömək edir.

Bu gün Azərbaycan dünyanın enerji təhlükəsizliyində xüsusi çəkisi olan ölkələr sırasında yer alır. Azərbaycan davamlı surətdə enerji təhlükəsizliyinin gücləndirilməsində etibarlı tərəfdaşa çevrilib.

***Zümrüd BAYRAMOVA***





# Azərbaycan - etibarlı tərəfdaş və sürətli inkişaf nümunəsi!

***Prezident İlham Əliyev Türkiyənin energetika və təbii sərvətlər nazirini, Səudiyyə Ərəbistanının "ACWA Power" şirkətinin təsisçisi və direktorlar şurasının sədrini, Pakistanın neft nazirini, "Schlumberger Overseas S.A" şirkətinin baş icraçı direktorunu və "ExxonMobil" şirkətinin vitse-prezidentini qəbul edib.***

Prezident İlham Əliyev iyunun 2-də Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Alparslan Bayraktarı qəbul edib. Dövlətimizin başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana "Bakı Enerji Həftəsi" ilə bağlı göndərdiyi məktuba görə təşəkkürünü bildirdi. Qəbula görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edən Alparslan Bayraktar bir neçə gün əvvəl Laçında keçirilmiş tədbirlərdə iştirakını məmnunluqla xatırladı və həmin tədbirlərin yüksək səviyyədə təşkili ilə bağlı təbriklərini çatdırdı.

Görüşdə "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi və 13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisinin bu sahədə beynəlxalq əməkdaşlığın qurulması, əlaqələrin genişləndirilməsi və yeni yanaşmaların tətbiqi baxımından rolu vurğulandı.

Azərbaycan və Türkiyə prezidentlərinin rəhbərliyi və liderliyi ilə ölkələrimizin bir çox qlobal layihələr həyata keçirdikləri, həmçinin Türkiyə Petrolları (TPAO), BOTAŞ-la SOCAR arasında uğurlu əməkdaşlığın qurulması məmnunluqla qeyd edildi. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Türkiyədə böyük sərmayədar olduğu vurğulandı. Söhbət zamanı ölkəmizdə enerji, o cümlədən bərpaolunan enerji sahəsində mühüm layihələrin icra olunduğu qeyd edildi, Azərbaycan və Türkiyənin bu istiqamətdə əməkdaşlığının bundan sonra daha da genişlənəcəyinə ümidvarlıq bildirildi. Enerji sahəsində əməkdaşlığımızın geniş gündəliyə malik olduğu vurğulandı və bu xüsusda gələcək layihələrlə bağlı fikir mübadiləsi aparıldı.

Dünən Prezident İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkətinin təsisçisi və direktorlar şurasının sədri Məhəmməd Əbunəyyanı qəbul edib. Görüşdə Azərbaycanla Səudiyyə Ərəbistanı Krallığı arasında əməkdaşlığın bir çox sahələrdə, o cümlədən enerji və bərpaolunan enerji sahələrində inkişafından məmnunluq bildirildi. Ölkəmizlə "ACWA Power" şirkəti arasında uğurlu layihələrin həyata keçirildiyi vurğulandı. Bu şirkətin Qafqaz regionunun ən böyük külək elektrik stansiyası olacaq Xızı-Abşeron külək elektrik stansiyası layihəsini inkişaf etdirməsinin əhəmiyyətinə toxunuldu.

Vurğulandı ki, "ACWA Power" ölkəmizdə dəniz suyunun duzsuzlaşdırılması üzrə tenderin qalibi olub və hökumətlə müqavilə şərtlərinin razılaşdırılmasının son mərhələsidir. Qısa müddət ərzində son müqavilə sənədlərinin imzalanması və suyun duzsuzlaşdırılması zavodunun tikintisinə başlanılması ilə bağlı hazırlıq işləri barədə fikir mübadiləsi aparıldı. Qonaq Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi, həmçinin Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisinin yüksək səviyyədə keçirilməsi ilə bağlı təbriklərini çatdırdı. Məhəmməd Əbunəyyan Azərbaycan Prezidentinin və Səudiyyə Ərəbistanı Kralının dünyada baş verən hadisələrlə bağlı böyük liderlik nümunəsi göstərdiklərini dedi. O, Səudiyyə Ərəbistanı Krallığından ölkəmizə yatırılan investisiyalara dövlətimizin başçısı tərəfindən göstərilən dəstəyə görə minnətdarlığını bildirdi. Söhbət zamanı gələcək əməkdaşlıqla bağlı məsələlər müzakirə olundu.







Prezident İlham Əliyev iyunun 2-də Pakistan İslam Respublikasının neft naziri Əli Pervaiz Maliki qəbul edib. Söhbət zamanı bir neçə gün əvvəl Laçında Azərbaycan, Türkiyə Prezidentlərinin və Pakistanın Baş nazirinin üçtərəfli görüşü xatırlandı, bu tədbirin ölkələrimiz arasında qardaşlığın və həmrəyliyin nümayişi olduğu bildirildi.

Azərbaycanla Pakistan arasında ikitərəfli münasibətlərin bütün sahələrdə inkişafından məmnunluq ifadə olundu, əməkdaşlığımızın enerji sahəsini də əhatə etdiyi vurğulandı.

"Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz və 13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji sərgilərinin önəminə toxunularaq, enerji sahəsində qlobal səviyyədə əməkdaşlığın genişləndirilməsi baxımından bu mühüm tədbirlərin rolu qeyd edildi.

Görüşdə ölkələrimiz arasında enerji, həmçinin bərpaolunan enerji sahəsində qarşılıqlı əməkdaşlığın perspektivləri ilə bağlı məsələlərə dair müzakirələr aparıldı. Qonaq Azərbaycan şirkətlərini Pakistanın enerji sektorunun imkanları ilə tanış olmağa dəvət etdi.

Prezident İlham Əliyev iyunun 2-də ABŞ-ın "Schlumberger Overseas S.A" (SLB) şirkətinin baş icraçı direktoru Olivye Le Peşi qəbul edib. Söhbət zamanı "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi və Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisinin əhəmiyyətinə toxunularaq, bu tədbirlər zamanı qlobal enerji məsələləri ilə bağlı müzakirələrin aparıldığı vurğulandı. "Schlumberger Overseas S.A" şirkətinin Azərbaycanda uğurla həyata keçirdiyi layihələr qeyd edildi, şirkətin 30 il ərzində Azərbaycanda neft və qaz yataqlarının işlənilməsində iştirakının, o cümlədən SOCAR və bp ilə əməkdaşlığının davam etdirilməsinin vacibliyi bildirildi. Görüşdə şirkət tərəfindən "SOCAR Green" şirkəti ilə birlikdə Kəlbəcər və Laçın bölgələrində geotermal enerji mənbələrinin istifadəsi ilə bağlı potensial layihənin həyata keçirilməsi barədə məlumat verildi. Söhbət zamanı ölkəmizlə bu şirkət arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev iyunun 2-də "ExxonMobil" şirkətinin vitse-prezidenti Con Ardilli qəbul edib. Con Ardill "ExxonMobil" şirkətinin rəhbəri Darren Vudsun salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını şirkətin rəhbərinə çatdırmağı xahiş etdi. Görüşdə "ExxonMobil" şirkətinin Azərbaycanda uzunmüddətli fəaliyyəti, o cümlədən "Azəri-Çıraq-Günəşli" layihəsində səhmdar qismində iştirakı qeyd olundu. Ölkəmizin neft-qaz potensialının reallaşdırılması istiqamətində SOCAR ilə "ExxonMobil" arasında bu gün imzalanması nəzərdə tutulan Anlaşma Memorandumu barədə Azərbaycan Prezidentinə məlumat verildi. Qonaqlar Azərbaycanda neft-qaz, enerji sahələrinin inkişafı üçün mövcud olan münbit şəraiti xüsusilə qeyd etdilər.

# “Bu qələbə minifutbolun inkişafına növbəti təkan verəcək”




*Prezident İlham Əliyev minifutbol üzrə dünya çempionatının qalibi olan Azərbaycan milli komandasının üzvlərini qəbul edib*



***İyunun 2-də Azərbaycan Prezidenti İlham Əliyev Bakıda keçirilmiş minifutbol üzrə dünya çempionatının qalibi olan Azərbaycan milli komandasının üzvlərini qəbul edib. Dövlətimizin başçısı görüşdə çıxış edib. Prezident İlham Əliyev öz çıxışında qeyd edib ki, Azərbaycan milli komandası bütün oyunlarda peşəkarlıq, qələbə əzmi göstərərək dünya çempionu titulunu qazanıb.***

Dövlətimizin başçısı diqqətə çatdırıb ki, Dünya çempionu olmaq böyük şərəfdir və böyük məharət tələb edir, xüsusilə komanda idman növündə: “Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. İlk növbədə, komandanın oyunçularını, məşqçilərini, mütəxəssislərini, Minifutbol Federasiyasını və bu qələbədə iştirak etmiş bütün insanları təbrik edirəm. Siz Azərbaycan xalqına yeni qələbə sevinci bəxş etmisiniz! Dünya çempionu olmaq böyük şərəfdir və böyük məharət tələb edir, xüsusilə komanda idman növündə. Bu, artıq gözəl tarixdir. Bu tarixi yazan da sizsiniz və şadam ki, Azərbaycanda minifutbol üzrə belə güclü oyunçularımız var.

Çempionatı izləyənlər öz gözləri ilə bizim oyunçularımızın tam üstünlüyünü görə bililər. Mən oyunlarınızın son dördünü izləmişəm və tam əminliklə deyə bilərəm ki, bu qələbə ədalətli mübarizədə qazanılmış qələbədir. Siz bu qələbəyə layiqsiniz. Futbol meydançasında bütün rəqibləri üstələmisiniz və eyni zamanda, gözəl komanda ruhu nümayiş etdirmisiniz. Görürəm ki, oyunçular bir-birinə çox bağlıdır, bir ailə kimidir. Əlbəttə ki, komandada hökm sürən bu gözəl ab-hava, bu iqlim qələbənizi şərtləndirən amillərdən biridir, eyni zamanda, bütün tamaşaçılar da bunu əyani şəkildə görüblər. Oyunu həm gimnastika arenasında izləyənlər, həm də televiziya vasitəsilə izləyənlər sizin qələbənizə ürəkdən sevinmişlər. Yenə də deyirəm, siz bu qələbəyə layiqsiniz və bütövlükdə qələbələr Azərbaycana yaraşır. Həm döyüş meydanında, həm siyasi müstəvidə, həm də idman arenalarında biz qələbə qazanan ölkəyik. Məhz bizim istedadlı və peşəkar gənclərimiz bu qələbə sevincini bizə gətirirlər. Mən sizi ürəkdən təbrik edirəm. Arzu edirəm ki, bu qələbələrin davamı olsun. Əlbəttə ki, bu titulu qorumaq o qədər də asan olmayacaq. Mübarizə çox gərgin gedirdi və təbii ki, dünya çempionatında təmsil olunan komandalar ən güclü komandalardır. Ancaq hesab edirəm ki, gələcəkdə xalqımızı sevindirmək və Azərbaycanın idman şöhrətini daim



yüksəklərdə saxlamaq üçün sizin böyük imkanlarınız var. Bir daha sizi təbrik edirəm və bu qələbə sevincini xalqımıza bəxş etdiyiniz üçün Azərbaycan xalqı adından Sizə təşəkkürümü bildirirəm. Sağ olun.

Azərbaycan Minifutbol Federasiyasının prezidenti Orxan Məmmədov:

-Möhtərəm cənab Prezident, mən şəxsən bütün federasiya adından, futbolçular adından, məşqçi heyəti adından Sizə öz dərin təşəkkürümü bildirirəm ki, bu gün bizi qəbul edirsiniz. Doğrudan da bu gün bizim üçün həm şərəfli, həm də uğurlu bir gündür. Biz doğma divarlar arasında dünya çempionu olmuşuq. Bu, hər bir futbolçu üçün çox önəmli bir haldır. Sizə deyə bilərəm ki, bütün oyunlar zamanı bütün azarkeşlər bizi dəstəkləyirdi. Xalqımız televizorun önündə bizi dəstəkləyirdi. Əlbəttə ki, futbolçular da çox böyük zəhmət çəkdilər və hər bir oyunda bir ailə kimi ruhlarını, canlarını qoydular. Doğrudan da azarkeşlər onları irəli səsləyirdi.

Möhtərəm cənab Prezident, əlbəttə ki, Sizin idmana, gəncliyə, ümumiyyətlə bütün futbolsevərlərə, minifutbolsevərlərə verdiyiniz dəstək bizim uğurumuzun əsas sütunu idi. Bunu hər bir futbolçu bilir və Sizə dərin təşəkkürümüzü bildiririk.

Həmçinin Sizin sahibkarlara göstərdiyiniz dəstək göz önündədir. Onlar futbolun bu növünə yatırımlar edirlər. Bizim çox güclü çempionatımız var. Sponsorlar oraya dəstək göstərir. Əlbəttə ki, biz bu çempionatdan ən güclüləri yığaraq bu gün milli komanda yaratmışıq. Onlar həm Avropa çempionu, həm də dünya çempionu oldular. Son dəfə Siz bizi qəbul edərkən Sizə söz verdik ki, çalışacağıq yeni titullar, yeni uğurlar qazanaq. Bizim üçün çox şərəflidir ki, bu dünya kubokunu Sizin önünüzə gətiririk. Sizə çox dərin təşəkkürümü bildirirəm, bu qələbəni biz xalqımıza, Vətənimizə, Sizə və hörmətli Mehriban xanıma həsr edirik. Çox sağ olun, Sizə çox təşəkkür edirəm, cənab Prezident.

Prezident İlham Əliyev: Sağ olun.

Milli komandanın baş məşqçisi Elşad Quliyev: Hörmətli Prezidentimiz, öz adımdan, komandanın adından təşəkkür edirəm ki, bizi dəvət etmisiniz. Biz 2022-ci ildə də Avropa çempionu olanda Siz bizimlə səmimi söhbət etdiniz və tapşırıqlarınızı verdiniz. O gündən sonra da biz çalışırdıq ki, yeni nailiyyətlər əldə edək. İnşallah, qismət oldu, dünən dünya çempionu olduq. Bunun üçün Sizə çoxlu təşəkkür edirik və xalqımıza, federasiyamıza, “Çox sağ ol!” deyirik. Sağ olun.

Prezident İlham Əliyev: Sağ olun, təşəkkür edirəm.

Dünya Minifutbol Federasiyasının prezidenti Filip Juda dedi:

-Möhtərəm cənab Prezident, Azərbaycanı belə möhtəşəm təmsil edən bütün bu şəxslərlə birlikdə burada olmaq mənim üçün həqiqətən də şərəfdir. Sizin qarşınızda onları bu böyük uğur münasibətilə bir daha təbrik etmək və bu turniri Azərbaycana gətirdiyinizə görə Sizə minnətdarlığımı bildirmək istərdim.

Bu, zənnimcə, mənim Bakıya 8-ci səfərimdir. İlk dəfə 2017-ci ildə burada olmuşam, Azərbaycan Minifutbol Federasiyasından olan bu insanlarla görüşmüşəm. Deməliyəm ki, onlar həqiqətən də böyük iş gördülər. Onlar Avropa çempionluğunu, dünya çempionluğunu qazandılar. Mən Sizə növbəti çempionatlarda uğurlar arzulayıram. Bilirəm ki, Sizin qrafikiniz çox məşğuldur. Sizi bu gün başlayan “Bakı Enerji Həftəsi”ndə gördüm. Bizimlə və bütün bu şəxslərlə görüşmək imkanına görə təşəkkür edirəm. Ümidvaram ki, bu uğur sayəsində Azərbaycanda yeni nəsil minifutbolçular meydana çıxacaq. Çünki şübhəsiz ki, bu nailiyyətiniz Azərbaycanda minifutbolun inkişafına, xalqa və bütün cəmiyyətə müsbət töhfə verir.

Bildiyimə görə, Azərbaycan Minifutbol Federasiyası ölkədə minifutbol arenasına sahib olmaq üçün böyük səylər göstərir. Ümidvaram ki, Dünya Minifutbol Federasiyası və yerli hökumətlə birlikdə bu, uğurlu bir layihə olacaq. Çünki, şübhəsiz ki, bu insanlar 2022-ci ildə Avropa çempionluğu, 2025-ci ildə dünya çempionluğunu qazanmaqla buna həqiqətən də layiqdirlər. Onların burada cənab Prezidentin qarşısında olmaqları ilə fəxr edirəm.

Dəvətə görə təşəkkür edirəm, sizin hamınıza uğurlar arzulayıram.

Prezident İlham Əliyev: Təşəkkür edirəm. Xoş sözlərə görə minnətdaram. Federasiya adından Azərbaycanda minifutbolun inkişafına verdiyiniz dəstəyə görə təşəkkür edirəm. Bu dəstək bizim üçün həqiqətən də qiymətlidir və biz Azərbaycanın beynəlxalq idman institutları ilə əməkdaşlığını yüksək qiymətləndiririk.

Əminəm ki, bu qələbə minifutbolun inkişafına növbəti təkan verəcək. Artıq Azərbaycan milli komandası bütün mümkün olan titulları qazanıb - Avropa çempionu, dünya çempionu. Əlbəttə ki, uşaqlar, yeniyetmələr, bax, bu qələbəyə sevinənlər - bizim gənc nəslimiz hesab edirəm ki, minifutbola daha böyük maraq göstərəcək və bu idman növünün inkişafı Azərbaycanda sürətlə gedəcək.

Milli komandamızın bütün üzvləri Azərbaycanda yetişdirilmiş gənclərdir. Bunun da xüsusi önəmi var. Yığma komandamızın müxtəlif inkişaf mərhələləri var idi və bu gün biz qələbə mərhələsində görüşürük. Təbii ki, xarici mütəxəssislərin, bəzən oyunçuların da müəyyən payı olub. Amma bu gün Azərbaycan milli komandası sırf Azərbaycanda doğulmuş, boya-başa çatmış gənclərdən ibarətdir və bu da xüsusi qürur hissi oyadır. Mən əminəm ki, bundan sonra da siz bizi sevindirəcəksiniz. Gələcəkdə çoxlu yarışlar var. Bildiyiniz kimi, indi Azərbaycanın bölgələrində idman qurğuları inşa edilir, inşaat geniş vüsət alıb və minifutbol meydançalarının da yaradılmasında böyük fayda olacaq, həm Bakıda, həm də bölgələrdə. Əminəm ki, federasiya dövlət qurumları ilə, sponsorlarla birlikdə bu sahədə növbəti uğurlu addımlar atacaqdır.

Bir daha sizi təbrik edirəm.

Sonda Azərbaycan Minifutbol Federasiyasının prezidenti Orxan Məmmədov dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

# Qurban bayramında kimlərə əl tutulmalıdır?



***İslam dünyasının ən müqəddəs bayramlarından olan Qurban bayramı bütün müsəlman ölkələrində təmtəraqla qeyd olunur. Azərbaycan müstəqillik əldə etdikdən sonra Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanununa əsasən, Qurban bayramı ölkəmizdə də dövlət səviyyəsində qeyd edilir.***



Bildiyimiz kimi, sovet hakimiyyəti dövründə din və dini ayinlər, bayramlar da tənqid hədəfi olmuşdur. Azərbaycan müstəqilliyə qovuşduqdan sonra xalqın dininə, milli ənənələrinə, milli və dini bayramlarına hörmət və diqqət yetirilməyə başlandı. Qurban bayramı da hər il rəsmi olaraq keçirilir. İnsanlar Qurban bayramını necə qeyd edirlər? Necə paylayırlar? Müqəddəs ayda kimlərə əl tutacaqlar? SİA vətəndaşlar arasında sorğu keçirib.

**Şəhər sakini Qədim Qədimov:** ”Qurban bayramı xalqımızın çox müqəddəs bayramıdır. Elə insanlar var ki, gücü, imkanı çatmır. Xalqımızın yardımsevər insanları imkansız şəxslərə yardım edirlər, qurban paylayırlar. Bu da alqışa layiqdir. Çox istərdim ki, belə insanlar xalqımızın bəzi imkansız ailələrinə kömək etsinlər”.

**Şəhər sakini Sürəyya Əliverdiyeva:** ”Xalqımızın qarşıdan gələn Qurban bayramını təbrik edirəm. Qurban bayramında imkanı olanlar qurban kəsir, imkansızlara paylayırlar. O cümlədən də, biz qurban kəsirik, imkansızlara paylayırıq. Çox gözəl təşəbbüsdür. Mən özümü çox xoşbəxt hiss edirəm ki, Allah mənə o imkanı verib, mən də qurban kəsə bilirəm. Qurban kəsiləndə Qurban bayramı vaxtı kəsilir. Bayramdan kənarda o zaman kəsilə bilər ki, kiminsə nəziri, əhdi ola bilər. Amma bayram qurbanları Qurban bayramında üç gün müddətində kəsilir, paylanılır”.

**Şəhər sakini Səlim Ridvanov:** ”Qurban bayramına İsmayıl bayramı deyirlər. Qurban bayramında bir nəfərə quzu, keçi, qoyun kəsmək olar. Böyük baş heyvanlar - camış, dana, döngə yeddi nəfərə kəsmək olar. Qoyunu kəsdikdə üç yerə bölünür. Onun bir hissəsini kasıb insanlara, bir hissəsini özünə saxlayırsan, bir hissəsini də qohum-əqrəbaya paylayırsan. Qurban bayramı İbrahim Peyğəmbərdən qalıb. O oğlu İsmayılı Allah yolunda kəsmək istəyib. Allah da ona qurbanlıq heyvan göndərib. Biz də İsmayıl qurbanı adı ilə bayram keçiririk”.

**Şəhər sakini Aygün İsmayılova:** ”Qurban kəsilir, hər evdə olduğu kimi bizdə də kartofla bişirirlər. Biz ətdən ayırırıq, ehtiyacı olan ailələrə paylayırıq. Kənddə axundumuz var. Ondan soruşuruq ki, kimin ehtiyacı var. O, tanıyır. Bizi yönləndirir. Bizdə adətdir ki, yeddi ailəyə pay verilməlidir. Qurban bayramı bizim öz bayramımızdır. Hamıya bunu arzulaya bilərəm ki, neçə gözəl bayramlar keçirək. Bayramdan kənar o zaman qurban kəsmək olar ki, nəzir deyirsən, kəsirsən. Gözəl bir şeydir, mən bunu təsdiqləyirəm. Çox yaxşı adətdir. Belə halların olması müsbətdir. Əslində müasirləşmə gedir, amma köhnə bayramların olması çox gözəldir”.

**Şəhər sakini Rasim Mustafayev:** ”Qurban bayramını yaxşı qəbul edirəm və qeyd edirəm. Mənə elə gəlir ki, qurban ancaq kasıblara paylanılmalıdır. Ən yaxşı yolu budur. Odur ki, imkansız adamlara verilməlidir. Mənim imkanım yoxdur, işsizəm. Amma olsaydı, mən də edərdim. Bayramdan kənar vaxtda qurban kəsənlər var. Onların niyyətinə baxır. Kəsdiklərini də eşitmişəm”.

**Şəhər sakini Elcan Kəlbiyev:** ”Qurban bayramı müqəddəs bayramdır. Qurban bayramının yaranma səbəbi İbrahim Peyğəmbərin öz oğlunu qurban etmək istəməsi ilə bağlıdır. Allah da ona göydən qurban payı göndərir. Qurban bayramı da buradan qalıb. Bayramdan əvvəl qurban kəsmək olmaz. Qurban bayramı günü kəsilməlidir. Qurban kəsiləndə kəsilən qurbandan pay ehtiyacı olan ailələrə, qonşulara, qohumlara paylanılır. Qurban bayramında hamı evində olmalı, evində qeyd etməlidir”.

***Söylü Ağazadə***



MƏTLƏB
Metlebsalahov@mail.ru

# Başına daş salınmış MƏKTƏB...

***Əvvəla ondan başlayım ki, ölkəmizdə son dərəcə böyük şəraiti və texnoloji imkanları olan gözəl məktəblər tikilir. Bu, hər il baş verir və neçə-neçə gözəl məktəb ocaqları şagird və müəllimlərin ixtiyarına verilir. Bu, gerçəkdən böyük uğurdur. Bu, təhsil üçün açılan böyük imkanlar deməkdir. Qalır o məktəblərdə gözəl tədris, idarəetmə və bilik qazanmaq. Hə, elə dərd də burdadır...***

Artıq neçə illərdir ki, orta məktəblərdəki direktorların özbaşınalığı, nizam-intizamın xaosla əvəzlənməsi, bir sıra müəllimlərin dövlətin tədris saatında şagirdə aşılamalı olduğu biliyi dərsdən sonrakı pullu məşğələyə saxlaması və bununla da orta məktəblərdə repetitor biznesinin çiçəklənməsi barədə o ki var yazırlar. Bir az təəccüblü, bir o qədər də bəzilərinin xoşuna gəlməsə də, sovet təhsil sisteminin nizam-intizam və tədris taktikasının üstünlüyü barədə xatirələr də aradabir media və sosial şəbəkə səhifələrini bəzəyir. Haqlıdırlarmı?- müəyyən mənada bəli. Özü də pedaqoqdan daha çox dəllala bənzəyən bir sıra direktorların məktəbi nüfuzdan saldığı bir vaxtda bütün müqayisələr aktual səslənir.

Nə oldu ki, məktəb bu sürətlə hörmətdən düşdü, necə oldu ki, bir vaxtlar gələcək nəsillər üçün az qala müqəddəs bünövrə sayılan, dəhlizlərində müəllimi görəndə şagirdlərin hörmət və təzim göstərdikləri təhsil ocağı belə acınacaqlı günlərə qaldı? Necə oldu ki, bir vaxtlar valideyndən on qat artıq uşaqlara ata-ana qayğısı götərən o böyük MÜƏLLİM adı, nüfuzu beləcə ucuz şəkildə xərclənib bitirildi?

Gələk əsas məsələyə. Son günlər məktəblərin hüquqi publik şəxs statusunda fəaliyyət göstərəcəkləri barədə danışılır və təklif edilir. Məktəblərin publik hüquqi şəxs olması, onların dövlətin tərkib hissəsi olaraq fəaliyyət göstərməkdən çıxaraq müstəqil hüquqi şəxs statusu alması deməkdir. Bu o deməkdir ki, məktəblər müstəqil olacaq, məktəb direktorlarının qərarvermə səlahiyyəti genişlənəcək, onlar məktəb ərazilərinin icarəyə verilməsi, müstəqil maliyyə sistemi yaradılması kimi qərarlar verə biləcəklər.

Bundan başqa, hüquqi və maliyyə müstəqilliyi o zaman effektiv olacaq ki, məktəbləri idarə edən şəxslər bu sahədə zəruri bilik və bacarıqlara malik olsunlar. Mövcud direktor korpusunun əksəriyyətinin pedaqoji təcrübədən uzaq olduğunu hər kəs bilir. Üstəlik, onların menecment, hüquq və maliyyə idarəçiliyi sahəsindən də bixəbər olmaları gün kimi aydındır. Alverçi təfəkkürlü bir sıra məktəb direktorları üçün yeni təklif edilən təhsil sistemi ancaq bir baxımdan maraqlı ola bilər - necə edək ki, daha çox qazanaq, vəssalam! Bu sistem tətbiq edilərsə, həm də məktəblərdə sosial təbəqələşmə daha da dərinləşəcək. Burası dəqiq belə olacaq.

Amma bu ideya reallaşa bilərmi? Axı bunun reallaşması, uğurla tətbiq edilməsi üçün heç bir real baza, təfəkkür və ictimai düşüncə yoxdur cənablar! Yalançı, formal bər-bəzəkli ”yenilik” xəstəliyi bizi qəti rahat buraxmır. Bizə yad olan belə “ideyalarla” özümüzü və qamətimizi daha da sındırırıq, başqa heç nə.

Dünyanın dörd bucağındakı bütün “yenilikləri” doldururuq təhsil sistemimizə. Bura Norveç, İsveç, Belçika deyil, bura Azərbaycandır və bu ölkədə ənənəvi, yüksək dəyər qazanmış tədris və pedaqoji tarix var. Hə, orası düzdür ki, o tarix də, o təcrübə və ənənə də məhv edilib getdi tarixin arxivinə...

Xüsusilə məktəb direktorlarının özbaşınalığı haqlı hiddət doğurur. Hörmətli Təhsil Nazirliyi, özünüzü fironlaşan məktəb direktorları qarşısında belə aciz göstərməyin, direktorlara heç bir təsiri olmayan formal quruma çevrilməyin. Çünki heç bir hörməti və funksiyası olmayan Təhsil Nazirliyi o deməkdir ki, təhsildə xaosdur, dərəbəylikdir və bu, o anlama gəlir ki, ölkənin gələcəyi olan indiki uşaqlar bu xaosun içində məhv olub gedirlər.

Doğrudanmı bu ölkədə gözəllik salonlarından məktəb direktorluğuna “atlayanlardan” fərqli olaraq əsl PEDAQOQLAR qəhətə çıxıb??? Guya siz bilmirsiniz ki, məktəblərdə repetitor biznesini gücləndirməklə dövlətin tədris proqramı lazımsız vaxt itkisinə çevrilib?

Sizin heç xəbəriniz yoxdurmu ki, vicdanını qoruyub saxlayan müəllimlərdən başqa, digərləri dövlətin tədris saatında şagirdə ötürməli olduğu biliyi pullu dərs saatına saxlayır? Bu, təkcə maaş azlığına görə deyil, həm də daha çox qazanmaq hərisliyi ilə bağlıdır. Xəbəriniz varmı ki, ibtidai sinif şagirdlərinin məktəbli çantaları NATO əsgərlərinin çantalarından daha ağırdır?

Ali məktəblərin ağır tədris proqramını orta məktəb dərsliklərinə köçürüb qırmayın uşaqların belini və beynini. Təsəvvür edin ki, 3-cü sinif şagirdinin həll etməli olduğu məsələlər ali məktəblərin birinci kurs tələbələri səviyyəsindədir. Bu cür “tədris” bu uşaqların qavrama və beyin miqyası üçün deyil axı.

Xəbəriniz varmı ki, orta məktəb dərsliklərinin səviyyəsi o qədər aşağıdır ki, dərsliklərdəki qüsurlar gülüş obyektinə çevrilib? Bu dərsliklərlə normal bilikli nəsillərin yetişdirilməsinə doğrudanmı sizin özünüz də inanırsınız? Gəlin bu xalqın gələcəyini doğulmamışdan məhv edib bir kənara tullamayaq, rica edirəm!!!

# Laçın sammiti: QARDAŞLIĞIN GÜCÜ






***Azərbaycan Prezidenti İlham Əliyevin, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin işğaldan azad edilmiş Laçın şəhərində dövlətlərimizin birliyini və həmrəyliyini nümayiş etdirən Zirvə görüşünün məhz Azərbaycan xalqının öz Müstəqillik Gününü qeyd etdiyi bir gündə, mayın 28-də, xalqımız üçün əlamətdar olan gündə keçirilməsinin rəmzi mənası çox böyükdür. Bu, ilk növbədə qardaşlığın gücü, qardaşlıq rəmzi olaraq başa düşülür.***

## Gücümüzün birlikdə, həmrəylikdə, qardaşlıqda olduğu mesajı verilib

Bütün dünya ictimaiyyətinə də çox yaxşı bəllidir ki, Azərbaycan, Türkiyə və Pakistan bir-biri ilə sıx bağlı dövlətlərdir. Çox yaxşı bəllidir ki, üçtərəfli əlaqələr iqtisadi, hərbi və humanitar sahələrdə fəal şəkildə inkişaf edir. Sirr də deyil ki, ölkələrimiz həm regional, həm də beynəlxalq siyasət məsələlərində bir-birlərini dəstəkləyirlər. Təsadüfi deyil ki, bu dəstək, məhz dövlət başçılarının Laçında keçirilən sammitdəki çıxışlarında da öz əksini tapmış oldu.

“Azərbaycan, Türkiyə və Pakistan - üç qardaş ölkə əməkdaşlığı ildən-ilə möhkəmlənir. Biz hər zaman bir-birimizin yanındayıq, həm xoşbəxt, həm də çətin gündə həmrəylik nümayiş etdiririk, dəstək veririk. Strateji əməkdaşlığımız bu gün keçirilən ikinci üçtərəfli Zirvə görüşündə bir daha təsdiqləndi”, deyə Azərbaycan Prezidenti cənab İlham Əliyevin çıxışında bildirməsi qeyd olunanları bir daha təsdiqləyir. Xüsusilə də, 44 günlük müharibədə Türkiyə və Pakistanın Azərbaycana siyasi və mənəvi dəstək verdiyini qeyd edən ölkə rəhbərimiz rəsmi Bakının mesajını vermiş oldu. Bu mesaj hər üç ölkənin gücünün onların birliyində olduğunu bir daha xatırladır. “Türkiyə və Pakistanın dəstəyi bizi ruhlandırdı, bizə əlavə güc verdi. Biz bu böyük siyasi və mənəvi dəstəyə görə qardaş ölkələrin rəhbərlərinə, qardaş xalqlara hər zaman minnətdarıq”, deyə bəyan edən Azərbaycan Prezidenti bizim gücümüzün birlikdə, həmrəylikdə, qardaşlıqda olduğunu hər kəsə çatdırıb.

“Azərbayca Ermənistanın hücumuna məruz qalıb. Türkiyə və Pakistan möhkəm qaya kimi Azərbaycanın tərəfində dayanıblar. Hindistan Pakistana hücum edib, əziz qardaşım Prezident Ərdoğan, Pakistandakı qardaşlarımız və əziz qardaşım İlham Əliyev, eləcə də Azərbaycandakı bacı və qardaşlarımız mümkün olan ən qısa zamanda Pakistanla tam həmrəy olduqlarını nümayiş etdirdilər”, deyə öz növbəsində Pakistanın baş naziri çıxışı zamanı xatırlatmasını təsadüfi olaraq etməyib. O, məhz Qarabağ, Kəşmir və Şimali Kipr məsələlərində Ankara, Bakı və İslamabadın siyasi xəttlərindəki mühüm yaxınlıqlara diqqət çəkib və bu məqam özü qardaşlığın gücünün təzahürü olaraq diqqətə çatdırılır.

Üç ölkənin qardaşlığının gücü, birliyi dayanıqlı platforma olaraq qəbul edilir

Bildiyimiz kimi, yeni dünya düzəninin çətin şəraitində istənilən xarici çağırışlara cavab verməK ən önəmli hesab olunur. Məhz bu baxımdan da, həmin çağırışlara cavab verilməsi üçün üç dövlətin, üç qardaş ölkənin çoxşaxəli əməkdaşlığı ümumi maraqlara və gələcəyə hesablanıb. Bunu, bu məqamı bütün dünya ictimaiyyəti çox yaxşı başa düşür. Əslində, sözügedən sammit və həmin zirvə görüşündə üç qardaş ölkənin rəhbərlərinin, liderlərinin bir yerdə olması çox ciddi mesajdır. Bu mesaj qardaşlığın gücünü ifadə edir. Çünki hər kəs başa düşür ki, Laçın sammiti və həmin sammitdə ifadə olunan mövqelər üç dövlətin birliyinin, möhkəmliyinin bir növ, daha bir təsdiqi sayılır.

Sözsüz ki, həmin sammit eyni zamanda, üçtərəfli əməkdaşlığın yeni konturlarını da müəyyənləşdirmiş oldu. Artıq hər kəsin müşahidə etdiyi format dayanıqlı platforma olaraq qəbul edilməkdədir. “Ölkələrimizin strateji mövqeyi və dinamik iqtisadi potensialı qarşılıqlı fayda üçün geniş imkanlar yaradır. İnanırıq ki, birgə layihə və proqramlar sayəsində siyasi, iqtisadi, enerji sahələrində, qarşılıqlı investisiyalar, nəqliyyat, müdafiə, kənd təsərrüfatı, informasiya texnologiyaları və digər sahələrdə əməkdaşlıq daha da sürətlə inkişaf edəcək”, deyə cənab Prezident İlham Əliyevin bəyan etməsi məhz həmin dayanıqlığın, həmin platformanın möhkəmliyinin təsdiqidir. Bəli, üç ölkənin qardaşlığının gücü, birliyi dayanıqlı platforma olaraq qəbul edilir.

## Müşahidə edilən birlik bizim qardaşlığımızın gücünün təzahürüdür...

Zirvə görüşünün məhz 2021-ci ildə tikintisinə başlanan və ağır dağlıq şəraitdə aparılan, zəhmət tələb edən qazıntı və mühəndislik işləri tələb edən Laçın Beynəlxalq Hava Limanının açılışı ilə eyni vaxtda olması heç də təsadüfi sayıla bilməz. Bu, ilk növbədə onu göstərir ki, qardaş ölkələr Azərbaycanın dövlət strategiyasının bu prioritet istiqamətinə də böyük dəstək verirlər. “Biz bu layihələrin Azərbaycanda həyata keçirilməsinə verdiyimiz töhfə ilə fəxr edirik və Azərbaycanın bölgələrinin bərpasında iştirak edən hər kəsə təşəkkür edirəm”, deyə Türkiyə Prezidentinin bildirməsi çox ciddi mesajdır və qardaşlığın gücünün ifadəsidir.

Bütün dünya ictimaiyyəti etiraf edir ki, Türkiyə-Azərbaycan-Pakistan münasibətləri digərlərindən səmimiyyət və qardaşlıq baxımından seçilir və çox fərqlənir. Ölkələrimiz bir-birlərinin uğurları ilə fəxr edirlər, qürur duyurlar. Üç dövlət başçısının bir-birinə daim “Qardaş” deyə müraciət etməsi arada olan səmimiyyəti təsdiq etdiyi kimi, uğurları və qələbələri bir yerdə qeyd etmələri də qürur hissini isbatlayır.

Görünən odur ki, hər üç qardaş ölkənin nüfuzu qlobal müstəvidə getdikcə artmaqdadır. Özü də dinamik şəkildə artmaqdadır. Hər üç ölkənin geosiyasi əhəmiyyəti də bütün dünyada qəbul edilməkdədir. “Güc birlikdədir”, zərb məsələində qeyd olunduğu kimi ölkələrimizin, Azərbaycan, Türkiyə və Pakistan olmaqla, hər üç ölkənin qüdrəti məhz birliyin sayəsində bu həddədir. Dəfələrlə qardaşlığımız və birlikdə güclü olmağımız barədə bütün dünyaya mesajlar verilib. Bu dəfə də məhz Laçın sammitində, işğaldan azad olunan torpaqlarımızda hər kəsin müşahidə etdiyi birlik bizim qardaşlığımızın gücünün təzahürüdür...

***İnam Hacıyev***

# Azərbaycan aviasiyası tarixində yeni mərhələ



## Beynəlxalq hava limanlarının sayı doqquza çatdı

***Azərbaycan iqtisadiyyatın şaxələndirilməsi, informasiya müstəqilliyinin və təhlükəsizliyinin təmin edilməsi, ölkəmizdə kosmik sənayesinin inkişaf etdirilməsi və beynəlxalq kosmik məkana inteqrasiya istiqamətində böyük nailiyyətlər əldə edib. Ölkənin iqtisadi inkişafının baza sütunlarından biri olan regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası bütün mövcud problemləri, insanları narahat edən sosial məsələləri əhatə edərək, ölkəmizin dinamik inkişafını təmin etməklə yanaşı, bölgələrin potensialının artmasına və əhalinin rifahının yüksəlməsinə geniş şərait yaradıb. Azərbaycan Prezidenti İlham Əliyevin bölgələrə səfərləri çərçivəsində bir sıra sosial və iqtisadi xarakterli obyektlərin - xəstəxanaların, yeni yolların, mədəniyyət, xidmət mərkəzlərinin, yeni iş yerlərinin və s. istifadəyə verilməsi ölkəmizdə uğurlu siyasətin məntiqi nəticəsidir.***

Beynəlxalq və regional əməkdaşlığa sanballı töhfələr verən müstəqil və suveren Azərbaycan iqtisadi gücünü, qüdrətini daha da artırmaqla yeni hədəfləri reallaşdırır və ölkəmizin təşəbbüsü, eləcə də iştirakı ilə qlobal layihələr uğurla icra edilir. İnkişaf strategiyası nəticəsində Azərbaycan dünya miqyasında sabit və dayanıqlı iqtisadiyyatı, eləcə də böyük maliyyə resursları olan, qlobal enerji təhlükəsizliyinin təminatında strateji rol oynayan dövlətə çevrilib. Bu inkişaf göstəriciləri ayrı-ayrı sahələrin paralel tərəqqisi fonunda özünü göstərir. Belə ki, ökəmizdə bütün sahələrdə olduğu kimi mülki aviasiya sahəsindən də sürətli inkişaf yan ötməyib.

Azərbaycan Prezidenti İlham Əliyevin 2006-cı il 18 may tarixli Sərəncamı ilə 2 iyun mülki aviasiya işçilərinin peşə bayramı kimi qeyd olunur. Bayramın məhz iyunun 2-də keçirilməsi isə Azərbaycanda ilk aviasiya qrupunun həmin gün yaradılması ilə əlaqədardır.

Mülki aviasiyamızın təməli yaxın keçmişimizlə bağlı deyil. Bir əsrdən artıq tarixi mərhələ var bu yolda. Belə tarixi olan Azərbaycan aviasiyası dünəndən bu günə qədər keçdiyi yolda mərhələ-mərhələ inkişaf edib. Mənbələrdən bəllidir ki, Azərbaycanda ilk təyyarə uçuşları 1910-cu ildə Bakının səmasında baş tutub. Bu, rus aviatoru Utoçkinin "Farman" tipli aeroplanla Balaxanı "şossesində" 4 gün ardıcıl olaraq həyata keçirdiyi uçuş olub. Azərbaycan aviasiyasının tarixi həmin zamandan yazılıb. Maraq doğuran hadisədən sonra Azərbaycanda təyyarə uçuşlarının sayı sürətlə artmağa başlayıb və qısa zamanda Bakıda və Yevlaxda aerodromlar tikilərək istifadəyə verilib. Azərbaycanın aviasiya tarixində uzaq məsafəyə ilk uçuş 1919-cu ildə həyata keçirilib. Azərbaycan mülki aviasiyası 1920-ci ilin aprelindən sonra SSRİ aviasiyasının tərkib hissəsi kimi fəaliyyət göstərib. Bu dövrdə Azərbaycan aviasiyası bir sıra məhdudiyyətlərlə qarşılaşsa da, müəyyən irəliləyişlərə də nail olub. 1938-ci il iyunun 2-də Mülki Hava Donanması Baş İdarəsinin əmri ilə Mülki Hava Donanmasının Azərbaycan aviasiya dəstəsi yaradılıb. Mülki aviasiya ilə bağlı bu xronoloji ardıcıllıq aviasiyanın keçdiyi yolun tarixinə həkk olub.

### XARİCİ AVİAŞİRKƏTLƏRLƏ MÜQAVİLƏLƏR BAĞLANDI

Qeyd edək ki, ötən əsrin əvvəllərində təməli qoyulan mülki aviasiyamızın tarixini əks etdirən materialları araşdırarkən İkinci Dünya müharibəsi illərində bu sahədə əldə edilən nailiyyətlər də diqqət çəkdi. Belə ki, ön cəbhədə, arxa cəbhədə azərbaycanlı hərbi təyyarəçilərimiz, aviatorlarımız, hərbi və mülki aviasiya sənayesində çalışan mütəxəssislərimizin rolu danılmazdır. Müharibə illərində Bakının Keşlə qəsəbəsində iki aviazavod fəaliyyət göstərirdi ki, fasiləsiz işləyən bu müəssisələrdə "UTİ-4" və "YAK-3" tipli təyyarələr, habelə hidrotəyyarələr üçün xizəklər istehsal olunurdu.

Azərbaycanın mülki hava donanmasının tarixində yeni keyfiyyətli dövr ötən əsrin yetmişinci-səksəninci illərinə təsadüf edir. Respublikanın 11 rayonunda yeni hava limanlarının tikilməsi və ya yenidən qurulması fikrimizi əsaslandırır. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə Naxçıvanda, Beyləqanda, Zaqatalada "Yak-40" reaktiv təyyarələri üçün süni örtüklü qalxma-enmə zolaqları salındı. Bakı və Gəncə hava limanları müasir naviqasiya vasitələri ilə təchiz edildi. 1971-ci ildə Gəncə Avia müəssisəsi fəaliyyətə başladı. Bütün bunlarla yanaşı, Gəncədə, Yevlaxda, Naftalanda, Naxçıvanda, Zaqatalada, Lənkəranda, Ağdamda, Ağstafada və Şəkidə süni örtüklü uçuş-enmə zolaqları ilə təchiz olunmuş hava limanları tikildi. Daha sonra 1976-1980-ci illər üçün Azərbaycanda mülki aviasiyanın yüksək inkişaf tempini nəzərdə tutan proqram hazırlandı. Ümummilli Lider Heydər Əliyev sovet dövründə milli aviasiyanın inkişafında istədiklərini tam həyata keçirə bilməsə də, müstəqillik dövründə bu sahədə olan arzularını gerçəkləşdirə bildi. Məlumdur ki, sovet hakimiyyəti dağıldıqdan sonra hərbi əmlakın və texnikanın əksər hissəsi ölkədən çıxarıldı, Azərbaycanda yerləşən silahlı qüvvələr isə birbaşa Rusiyanın tabeliyinə keçdi. Azərbaycan aviasiyası ağır vəziyyətə düşmüşdü. Bütün əlaqələr pozulmuşdu. Belə bir zamanda Onun uzaqgörən siyasəti nəticəsində aviasiya sahəsində böyük layihələrin həyata keçirilməsinə start verildi. 1993-cü ildə dünya şöhrətli siyasətçi Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı bütün sahələrdə olduğu kimi, milli aviasiya sahəsində də kəskin dönüşə səbəb oldu. Görülən tədbirlər nəticəsində xarici aviaşirkətlərlə müqavilələr bağlandı. Aviasiya xətlərinin miqyasının sürətlə artması Azərbaycanın dünyaya çıxışını asanlaşdırdı. Ulu Öndərin rəhbərliyi ilə "1998-2003-cü illər üçün Respublika Mülki Aviasiyasının İnkişaf proqramı" hazırlanıb, uğurla həyata keçirildi. Bu proqram çərçivəsində 1999-cu il oktyabrın 2-də Bakı hava limanında dünya standartlarına tam cavab verən yeni aerovağzal kompleksi tikildi.

### AZƏRBAYCANA LAYİQ HAVA LİMANI

Müstəqillik illərində yaradılan "Azərbaycan Hava Yolları" Dövlət Konserninin Milli Aviasiya Akademiyası kadrların hazırlanmasında böyük rol oynadı. "Milli Aviasiya Mərkəzi" adı ilə yaradılan akademiya 1994-cü ildən Milli Aviasiya Akademiyasına çevrildi. Milli kadların hazırlanmasına xüsusi diqqət ayıran Heydər Əliyev "Mən xoşbəxtəm ki, artıq indi Azərbaycanın mülki aviasiyasının milli kadrları - azərbaycanlı təyyarəçilər, mühəndislər, mütəxəssislər vardır", - deyirdi. Akademiyaya 1998-1999-cu tədris ilində 11 ixtisas üzrə 276 nəfər daxil oldu. Bu gün akademiya Dövlətlərarası Aviasiya Komitəsinin mütəxəssislərin hazırlanması və təkmilləşdirilməsinə hüquq verən sertifikatına layiq görülüb.

Ulu Öndər Heydər Əliyev dediyi kimi: "Hava limanı Azərbaycanın qapısıdır. Onu gərək elə göstərək ki, Azərbaycana layiq olsun". Beynəlxalq tədbirlər məkanı olan Azərbaycana gələn - vəzifəsindən, irqindən asılı olmayan hər kəs ölkəmizin güc və nüfuzunu ilk andaca hiss edir. Sonrakı addımları sehrli ölkəmizin yavaş-yavaş açılan qapılarından başlanır. Ölkəmizdə, paytaxt Bakıda keçirilən beynəlxalq tədbirlər zamanı Azərbaycana səfər edən əcnəblər şəhərimizin seyrəngahlığını, möhtəşəmliyini, gözəlliyini, dünya standartlarına cavab verən tələblər çərçivəsində inşa edilən Heydər Əliyev Beynəlxalq Aeroportunu görürlər.

### AVİASİYA SAHƏSİNDƏ KOMPLEKS TƏDBİRLƏR

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan hava nəqliyyatının əsaslı şəkildə yenidən qurulması prosesini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev uğurla davam etdirir. Ölkə başçısının son illərdə mülki aviasiya sahəsinə göstərdiyi daimi diqqət və qayğısının nəticəsi olaraq bir çox nailiyyətlərə imza atılıb. Bəllidir ki, Azərbaycana gələn əcnəbi üçün ölkəmizə səyahət bu qapıdan - hava qapısı adlandırılan məkandan başlayır. Ölkə Prezidenti Cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində mülki aviasiyamız 2003-cü ildən etibarən inkişafının keyfiyyət və miqyası etibarilə yeni bir mərhələsinə qədəm qoyub. Milli aviasiyanın inkişafı, infrastrukturunun təkmilləşdirilməsi və aviaparkın yeniləşməsində Prezident İlham Əliyevin qayğı və diqqəti də olduqca böyük əhəmiyyətə malikdir. Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə, aviasiya sahəsində kompleks tədbirlər həyata keçirilir. Paytaxt və regionlarda olan hava limanlarının maddi-texniki bazası möhkəmləndirilib, müasir xidmət infrastrukturu yaradılıb. "Naxçıvan" beynəlxalq hava limanı, "Gəncə" beynəlxalq hava limanı və "Zabrat" hava limanında yeni təyyarə vağzalının binası istismara verilib. "Lənkəran" və "Zaqatala" beynəlxalq hava limanları açılıb.

### QARABAĞIN HAVA QAPISI - FÜZULİ HAVA LİMANI

44 günlük Vətən müharibəsində qısa bir zamanda uğurlu əməliyyatlar nəticəsində düşmən tapdağı altında olan torpaqlarımızın işğaldan azad olunması ilə Ermənistanın 30 ilə yaxın davam edən işğalçılıq siyasətinə son qoyuldu. Ermənistan tərəfindən işğal altında saxlanılmış bu ərazilərdə Azərbaycanın şəhərləri və digər yaşayış məntəqələri, o cümlədən infrastruktur obyektləri tamamilə dağıdılıb, milli-mədəni irsimiz məhv edilib, təbii sərvətlərimiz talan olunub. Bu gün işğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərinə başlanılıb. Zəfər qazanmış Azərbaycanın işğaldan azad olunmuş ərazilərində yeni hava limanları da tikilib və bu davam etməkdədir. Qarabağın hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanı ən müasir səviyyədə inşa olunaraq istifadəyə verilib. Füzulidə yerləşən beynəlxalq hava limanı ən müasir standartlarla uyğun təchiz edilmiş böyük bir kompleksdir. Hava limanının açılış mərasimi Azərbaycan Prezidenti İlham Əliyevin və qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Qələbə Gününün birinci ildönümündən bir neçə gün əvvəl baş tutdu. Türkiyə Prezidenti Füzuli hava limanında havaya qalxan ilk xarici sərnişin oldu. Maksimal rekord müddətdə inşa edilən hava limanı Azərbaycanın işğaldan azad edilmiş ərazilərində ilk əhəmiyyətli infrastruktur obyektidir. Füzulidə yerləşən beynəlxalq hava limanı sadəcə regionun vizit kartı deyil, həm də mühüm strateji məntəqədir. O, Qarabağın digər regionlarla və bütün dünya ilə əlaqələrini genişləndirəcək. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti çıxışında Füzuli hava limanını "Qarabağın hava qapısı" adlandırıb. Yeni hava limanının uğurlu coğrafi mövqeyi ölkəyə beynəlxalq nəqliyyat logistikası və turizm potensialının açılması üçün geniş imkanlar yaradır. Bunun sayəsində sərnişin axını artacaq və regionun turizm potensialının inkişafına əlverişli təsir göstərəcək. Hava limanının istənilən tip hava gəmisini qəbul etmək imkanları var. Uçuş-enmə zolağının uzunluğu 3000, eni isə 60 metrdir. Hava limanının müasir infrastrukturla təchiz olunan terminalı saatda ən azı 200 sərnişinin buraxılışına imkan verir. Burada görülən bütün işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilib.

### ÜÇÜNCÜ BEYNƏLXALQ HAVA LİMANI

Mayın 28-də Laçın Beynəlxalq Hava Limanının açılış mərasimi də müasir aviasiya tarixində yeni mərhələdir. Azərbaycan və Türkiyə prezidentləri hava limanının rəmzi açılışını bildirən lenti kəsiblər. Mürəkkəb dağlıq relyefdə yerləşən Laçın Beynəlxalq Hava Limanı işğaldan azad olunmuş ərazilərdə inşa edilən üçüncü beynəlxalq hava limanıdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş torpaqlarımızda genişmiqyaslı bərpa və yenidənqurma işləri həyata keçirilir. Bu layihələrin arasında hava limanlarının inşası xüsusilə mühüm strateji əhəmiyyət daşıyır. Laçın Beynəlxalq Hava Limanının istifadəyə verilməsi ilə Azərbaycanın beynəlxalq hava limanlarının sayı doqquza çatıb. Mülki aviasiya sahəsindəki uğurlar bizə deməyə əsas verir ki, ölkəmizin coğrafi cəhətdən olduqca əlverişli mövqedə yerləşməsi ölkəmizin dünyanın hava nəqliyyatı sistemindəki rolunu daha da artırır. Ölkəmizin hava nəqliyyatının modernləşdirilməsinə xüsusi diqqət göstərən Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinin yüksək səviyyədə icra olunması Azərbaycanın aviasiya sahəsinin tamamilə yeni mərhələyə çıxarılmasına şərait yaradıb.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Randox Beynəlxalq Keyfiyyətin Qiymətləndirilməsi Sistemi çərçivəsində maarifləndirici seminar keçirilib






***29** may 2025-ci il tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin və Mərkəzi Gömrük Hospitalının birgə təşkilatçılığı ilə, "İmago Medical Systems" şirkətinin dəstəyi ilə Randox Beynəlxalq Keyfiyyətin Qiymətləndirilməsi Sistemi (RIQAS) proqramı çərçivəsində beynəlxalq təcrübəyə əsaslanan maarifləndirici seminar keçirilib.*

Tədbirdə Mərkəzi Gömrük Hospitalının rəisi-Baş həkim, t.e.d. Bəxtiyar Musayev, Laboratoriya şöbəsinin rəisi, b.ü.f.d. Səbinə İbrahimova, Randox şirkətinin Marketinq direktoru Susan Hammond, Biznesin İnkişafı Departamentinin meneceri Ornella Kim, Təlimlər üzrə mütəxəssis Sahil Trikha, laboratoriya mütəxəssisləri və rəsmi qonaqlar iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Mərkəzi Gömrük Hospitalının rəisi – Baş həkim, t.e.d. Bəxtiyar Musayev tədbir iştirakçılarını səmimi salamlayaraq, laboratoriya xidmətlərinin müasir səhiyyə sistemində strateji əhəmiyyət daşıdığını, eləcə də pasiyentin sağlamlıq durumunun dəqiq və vaxtında qiymətləndirilməsi, düzgün diaqnostik qərarların qəbul olunması və effektiv müalicənin strategiyalarının müəyyənləşdirilməsinin bilavasitə laborator müayinələrin keyfiyyəti ilə sıx bağlı olmasını bildirib.

Baş həkim Bəxtiyar Musayev qeyd edib ki, laboratoriya sahəsində yüksək texnoloji avadanlıqların, beynəlxalq standartlara əsaslanan keyfiyyətə nəzarət mexanizmlərinin tətbiqi tibbi xidmətlərin ümumi keyfiyyətinə birbaşa təsir göstərir və maarifləndirici tədbirlər səhiyyə sistemində davamlı inkişafın təmin olunması, mütəxəssis heyətinin bilik və bacarıqlarının artırılması və pasiyentlərə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

Daha sonra Randox şirkətinin Marketinq direktoru Susan Hammond və Təlimlər üzrə mütəxəssis Sahil Trikha təqdimatla çıxış edərək, proqramın məqsədləri, beynəlxalq təcrübələr və laboratoriya xidmətlərinin keyfiyyətinin artırılması istiqamətində istifadə olunan innovativ metodlar barədə geniş məlumat veriblər. Onlar həmçinin RIQAS sisteminin əhəmiyyətini və bu sahədə əməkdaşlığın inkişaf perspektivlərini vurğulayıblar. Seminar iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb, mütəxəssislər arasında təcrübə mübadiləsi üçün geniş imkanlar yaradılıb. Tədbir xatirə şəklinin çəkilməsi ilə başa çatıb.

# DİQQƏT: Vətəndaş yeni şəxsiyyət vəsiqəsini alarkən nə etməlidir?



*AYDINLIQ GƏTİRİLDİ*

"**A**zərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin şəxsiyyət vəsiqəsi verən yerli orqanları tərəfindən "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikasının Qanunu və bu qanunun tətbiqi barədə Əsasnamə ilə müəyyən edilmiş qaydada verilir". Bu sözləri SİA-ya açıqlamasında Vəkillər Kollegiyasının üzvü Rəşad Əliyev deyib. O bildirib ki, vətəndaşa ilk dəfə şəxsiyyət vəsiqəsinin verilməsi üçün bəzi sənədlər tələb olunur: "Şəxsiyyət vəsiqəsinin verilməsi haqqında ərizə-anket (1 nömrəli əlavə - DİN-nin məsul əməkdaşı tərəfindən elektron formada tərtib edilir);

vətəndaşın doğum haqqında şəhadətnaməsi;

Azərbaycan Respublikasının 1999-cu il 8 dekabr tarixli 773-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"nin 2-ci maddəsində göstərilən, yaşayış sahəsinə köçmək üçün əsas verən sənəd (əgər vətəndaşın yaşayış yeri üzrə qeydiyyatı yoxdursa);

Vətəndaşın qan qrupu, gözlərinin rəngi, boyu haqqında tibbi arayış;

Dövlət rüsumunun ödənilməsi barədə sənəd;

Ərizə vətəndaşı övladlığa götürən, vətəndaşın himayəçisi və ya qəyyumu tərəfindən verildikdə, onun hüquqlarını təsdiq edən sənəd;

15 yaşı tamam olmamış vətəndaşa şəxsiyyət vəsiqəsinin verilməsi və ya dəyişdirilməsi onun qanuni nümayəndəsinin, habelə qanuni nümayəndəsinin notariat qaydasında təsdiq edilmiş etibarnaməsi əsasında təyin olunmuş şəxsin müraciəti ilə həyata keçirilir;

15 yaşı tamam olmamış vətəndaşa şəxsiyyət vəsiqəsinin verilməsi üçün vətəndaşın əl-barmaq izləri götürülmür, həmçinin gözlərinin rəngi və boyu haqqında tibbi arayış tələb olunmur;

15 yaşı tamam olmamış vətəndaşa verilən şəxsiyyət vəsiqəsində onun fotoşəkli yerləşdirilir, lakin şəxsi imzası göstərilmir.

15 yaşdan 18 yaşadək olan vətəndaşın ərizə-anketini onun özü və ya qanuni nümayəndəsi verə bilər. Hər iki halda ərizə-anketdə 15 yaşdan 18 yaşadək olan vətəndaşın imzası olmalıdır.

Vətəndaşın əl-barmaq izlərinin götürülməsi, habelə Beynəlxalq Mülki Aviasiya Təşkilatının (İCAO-nun) tələblərinə uyğun fotoşəklinin çəkilməsi vəsiqə verən orqanda ödənişsiz həyata keçirilir.

Elektron imza ilə əlaqədar sertifikatların, elektron imza yaratma və yoxlama məlumatlarının verilməsi, onlardan istifadə və həmin sertifikatların qüvvəsinin dayandırılması, bərpası və ya ləğvi "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada həyata keçirilir.

Şəxsiyyət vəsiqəsi 10 (on) illik müddətə, 55 yaşı tamam olmuş şəxslərə isə qeyri-məhdud müddətə verilir. Şəxsiyyət vəsiqəsinin etibarlılıq müddəti bitdikdə, yaxud vətəndaşın soyadı, adı, atasının adı dəyişdikdə və ya şəxsiyyət vəsiqəsi, o cümlədən onun elektron daşıyıcısı (çip) yararsız hala düşdükdə, yaxud vəsiqənin üzərindəki məlumatların səhv olduğu müəyyənləşdirildikdə, vətəndaş şəxsiyyət vəsiqəsinin dəyişdirilməsi üçün 1 (bir) ay müddətində vəsiqə verən orqana müraciət etməlidir.

Şəxsiyyət vəsiqəsinin etibarlılıq müddətinin bitməsi, yaxud vətəndaşın soyadının, adının, atasının adının dəyişməsi və ya şəxsiyyət vəsiqəsinin, o cümlədən onun elektron daşıyıcısının (çipin) yararsız hala düşməsi ilə əlaqədar şəxsiyyət vəsiqəsi dəyişdirilərkən vətəndaşın fotoşəkli vəsiqə verən orqanda çəkilməklə və əl-barmaq izləri götürülməklə yalnız aşağıdakılar tələb edilir:

1. şəxsiyyət vəsiqəsinin dəyişdirilməsi haqqında ərizə-anket (2 nömrəli əlavə- DİN-nin məsul əməkdaşı tərəfindən elektron formada tərtib edilir);
2. şəxsiyyət vəsiqəsi;



3. dövlət rüsumunun ödənilməsi barədə sənəd;
4. ərizə vətəndaşı övladlığa götürən, vətəndaşın himayəçisi və ya qəyyumu tərəfindən verildikdə, onun hüquqlarını təsdiq edən sənəd.

Şəxsiyyət vəsiqəsinin üzərində göstərilən və şəxsiyyət vəsiqəsinin elektron daşıyıcısına (çipə) daxil edilmiş dəyişdirilməyən məlumatlarda səhv müəyyənləşdirildikdə, həmin vəsiqə təqdim edildiyi vaxtdan bir gün müddətində dövlət rüsumu alınmadan dəyişdirilir. Şəxsiyyət vəsiqəsinin elektron daşıyıcısına daxil edilmiş dəyişdirilə bilən məlumatlarda səhv müəyyənləşdirildikdə, vəsiqə səhv məlumatları daxil etmiş orqana təqdim edildikdən dərhal sonra (ən geci 30 dəqiqə ərzində) həmin məlumatlar dövlət rüsumu alınmadan dəyişdirilir.

Vətəndaş yeni şəxsiyyət vəsiqəsini alarkən, köhnə şəxsiyyət vəsiqəsini təhvil verməlidir.

QEYD: Şəxsin Azərbaycan Respublikası vətəndaşlığına mənsubiyyətini müəyyənləşdirmək zərurəti yarandıqda, o Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən "ASAN xidmət" mərkəzlərində təşkil olunan müvafiq xidmətinə müraciət edə bilər.

Şəxsiyyət vəsiqəsinin itirilməsi və ya oğurlanması

1.Şəxsiyyət vəsiqəsi itirildikdə vəsiqənin sahibi və ya onun qanuni nümayəndəsi onu harada, nə vaxt və hansı şəraitdə itirdiyini göstərməklə, vəsiqə verən orqana yazılı məlumat verməlidir.

2. Şəxsiyyət vəsiqəsini itirdiyini bildirən vəsiqə sahibi və ya onun qanuni nümayəndəsi, habelə qanuni nümayəndəsinin notariat qaydasında təsdiq edilmiş etibarnaməsi əsasında təyin olunmuş şəxs həmin vəsiqəni taparsa və ya itirilmiş şəxsiyyət vəsiqəsi yeni şəxsiyyət vəsiqəsi verildikdən sonra tapılarsa, tapılmış şəxsiyyət vəsiqəsi dərhal vəsiqə verən orqana təhvil verilməlidir.

3. Vəsiqə sahibi və ya onun qanuni nümayəndəsi, habelə qanuni nümayəndəsinin notariat qaydasında təsdiq edilmiş etibarnaməsi əsasında təyin olunmuş şəxs şəxsiyyət vəsiqəsini itirdiyi barədə vəsiqə verən orqana yazılı müraciət etdikdə və vəsiqə sahibinin şəxsiyyəti müəyyənləşdirildikdə, bu barədə məlumat Qüvvədən düşmüş sənədlərin dövlət reyestrinə ötürülür. İtirilmiş vəsiqə barədə məlumat Qüvvədən düşmüş sənədlərin dövlət reyestrinə daxil edildikdən sonra həmin sənəd qüvvədən düşmüş hesab edilir, İAMAS-da aktiv statusu dəyişdirilir. Şəxsiyyət vəsiqəsinin itirilməsi ilə əlaqədar yenidən verilməsinə görə dövlət rüsumu ödənildikdən və şəxsiyyət vəsiqəsinin verilməsi haqqında ərizə-anket doldurulduqdan sonra vətəndaşa yeni şəxsiyyət vəsiqəsi verilir.

4. Şəxsiyyət vəsiqəsi oğurlandıqda, vəsiqə sahibi və ya onun qanuni nümayəndəsi bu barədə cinayətin baş verdiyi yerin polis orqanına yazılı müraciət etməlidir. Belə ərizənin qəbul olunması haqqında həmin şəxsə arayış verilir və bu arayış oğurlanmış şəxsiyyət vəsiqəsinin qüvvədən düşməsi barədə Qüvvədən düşmüş sənədlərin dövlət reyestrində qeydiyyatın aparılması və bunun əsasında vəsiqə sahibinin və ya onun qanuni nümayəndəsinin, habelə qanuni nümayəndəsinin notariat qaydasında təsdiq edilmiş etibarnaməsi əsasında təyin olunmuş şəxsin müraciəti ilə yeni şəxsiyyət vəsiqəsinin verilməsi üçün əsas hesab edilir".

**Söylü Ağazadə**

# Milli mətbuat 150: bədbəxt hərflər, nakam sözlər, talesiz durğu işarələri...







1875-ci il aprelin 21-də də Mirzə Fətəli Axundzadə Həsən bəy Zərdabiyə belə bir məktub göndərir: "Sizin qəzetinizin əsas məziyyətlərindən biri ifadənin gözəlliyi, ibarələrin zərifliyi və aydınlığı, orfoqrafiyanın düzgünlüyü olmalıdır. Çünki qəzetiniz başqa məsələlərlə yanaşı, Azərbaycan yazısını düzgün olmayan ifadələrdən təmizləməyə çalışmalı, bu dildə yazan bütün adamlar üçün nümunə olmalıdır. Orfoqrafiyaya gəlincə, sizin gələcəkdə təyin edəcəyiniz mühərrir mənim Azərbaycan dilində olan komediyalarımın orfoqrafiyasına riayət etməlidir".

"Əkinçi"nin nəşrə başlaması ərəfəsində ilk mətbuat orqanımız olacaq qəzet vasitəsilə dilimizin orfoqrafik qaydalarına məsuliyyətlə yanaşmağı tövsiyə edən Mirzə Fətəli Axundzadənin belə bir məktub yazması onun dilimizin təmizliyinin qeydinə qaldığının, bu dilin sahib olduğu zənginliklə birlikdə oxucu kütlələrinə çatdırılması istəyinin təzahürü idi. Çünki Axundzadə mətbuatın cəmiyyətin inkişafında, dilin təbliğində rolunun böyük olduğunu bilirdi. Elə buna görə də bu işə məsuliyyətlə yanaşmağı tövsiyə edirdi.

Allah sizə rəhmət etsin, Mirzə Axundzadə. Siz nəsil dilin təmizliyi, orfoqrafiya qaydaları uğrunda mübarizə apardınız və buna nail oldunuz da. Uzun illər sizin bu qələbənizdən bəhrələndik. Lakin nə bilərdiniz ki, zaman gələcək, Azərbaycan mətbuatı elə bir vəziyyətə düşəcək, bu mətbuatda elə jurnalistlər peyda olacaq ki, nə dildən, nə də onun orfoqrafik qaydalarından xəbəri olmayacaq. O zaman elə bu gündür. Hazırda kütləvi informasiya vasitələrində jurnalistlər var ki, onların ucbatından hərflər bədbəxtlik, sözlər nakamlıq, durğu işarələri ilə qara tale yaşayır.

### Xəcalət çəkən hərflər...

Hərflər "başbilən" jurnalistlərin əlindən qaçıb gizlənməyə yer axtarır. Çünki onlar o qədər yersiz işlədilir ki, hərflərin özü bundan utanır. Hərflər bizdən daha gözəl bilirlər ki, işlənən sözdə onların yeri var, ya yox. Məsələn, jurnalistlərimiz "əsl məsələ" əvəzinə, "əsil məsələ", "bizim əsrdə" əvəzinə, "bizim əsirdə", "bu mətndə" əvəzinə, "bu mətində", "servis xidməti" əvəzinə, "servis xidməti", "atlaz parça" əvəzinə, "atlas parça", "hərfi məna" əvəzinə, "hərifi məna", "dövlət sənədi" əvəzinə, "dövlət sənəti", "xeyr, olmaz" əvəzinə, "xeyir, olmaz", "nəfs məhv edir" əvəzinə, "nəfis məhv edir" kimi yazanda hərflər utandığından gizlənmək istəyir. Lakin biz nə edirik, onları gizləndikləri yerdən



zorla çıxarıb gətirib sözlərə artırıb öz savadsızlığımızı, orfoqrafiya qaydalarından xəbərsiz olduğumuzu nümayiş etdiririk.

Qoşa samitlə yazılan sözlər bəzi jurnalistlərin əlindən intihar etmək səviyyəsinə gəlib. Çünki hərflər "hədiyyə, tövsiyə, maliyyə" yazmaq istəyərkən, biz onları "tövsiyyə", "maliyə", "hədiyə" edirik. Səciyyəvini "səciyəvi", dərrakəni "dərakə, mürəkkəbi "mürəkgəb", "səyyari"ni "səyari", "əziyyət"i "əziyət", "xasiyyət"i "xasiyət" kimi özünəgüvənlə yazırıq və düşünürük ki, bu qaydaları bizdən yaxşı bilən yoxdur.

Kömbə, pambıq, kombayn, tramvay, qumbara, peyğəmbər, hambal sözləri orfoqrafik qaydalara əsasən (mb) ilə yazılır və tələffüz edilir. İstanbul, tənbəl, mənbə, minbər, şənbə, anbar, günbəz, qənbər, sünbül, zənbil, zanbaq və sair sözlər "nb" ilə yazılır, "mb" ilə tələffüz olunur. Lakin ən çox səhv yazılan sözlər də elə bu yazıq sözlərdir. "Mb" "nb", "nb" "mb" ilə yerli-yersiz mətbuatda tüğyan edir.

Təəssüf, tərəddüd, təəccüb, təəssürat, məəttəl sözləri bəzi jurnalistlərin onları bircə dəfə düzgün yazması üçün canlarını fəda edərlər. Lakin haradadır o jurnalistlər?.. Onlar nəinki bilmir, heç öyrənmək də istəmirlər. Bir dəfə orfoqrafiya kitabını açıb, qarşılarına qoyub bu bədbəxt sözlərin necə yazılışına baxmaq barədə düşünmürlər.

Kitab nədir, indi hamımızın əlindəki telefonlara yerləşdirə biləcəyimiz sadə və asan lüğətlərdən belə istifadə ya ağıllarına gəlmir, ya bu barədə məlumatları yoxdur, ya da özləri haqqında o qədər yüksək fikirdədirlər ki, bunu rəva bilmirlər.

### İnsan kimi söz də nakam ola bilirmiş...

Sözləri hərflər yaratdığı üçün onlar bir-birinə qırılmaz tellərlə bağlıdır. Ona görə də hərflər haqqında yuxarıda söylədiklərimiz elə sözlərə də aiddir. Çünki bir hərfin yanlış yazılması ilə söz öz mənasını itirir, səhv sözlər isə anlaşılmaz cümlələri yaradır. Bu, əslə bəzi mətbuat nümayəndələrinin vecinə belə deyil. Çünki onlar yazdıqlarının düzgün olduğuna adları qədər əmindirlər.

Lakin sözlər bu münasibətdən çox incikdir. Axı söz yaxşı bilir ki, insan əsr deyil, əsir düşür. Sözləri həriflər yaratmır, hərflər yaradır, buna da əmindir. Mətndəki cümlələrlə mətindəki cümləlləri də ayırd edə bilir söz. Nəfslə nəfisin ayrı-ayrı mənalarını da bizdən yaxşı bilir. Hələ atlazla atlası ayırd etməyən jurnalistlərə yol da göstərə bilər, söz. Əgər qulaq asarlarsa...

Söz deyir, mən "qızılgül"əm, biz yazırıq "qızıl gül". Söz deyir, mən "paltaryuyan"am, biz yazırıq "paltar yuyan". Söz deyir, mən "qab-qacaq"(ğ)am, biz nəinki mətbu orqanlarda, hətta dərsliklərdə "qab qacaq" yazırıq. İddia edirik ki, qoy uşaqlı-böyüklü hamı bunu bizim yazdığımız kimi qəbul etsin. Söz deyir, mən "mərhum"am, biz yazırıq "məhrum"uq.

Bəli, məhrumuq. Özümüz fərqində olmasaq da, çox məsələlərdən məhrumuq. Elə dilimizi, onun orfoqrafik qaydalarını bilməkdən məhrum kimi...

Bu yerdə Xalq şairi Osman Sarıvəllinin sözlərin düzgün işlədilməməsi, yersiz təkrarlara yol verilməsi ilə əlaqədar narahatlığını jurnalistlərə və redaktorlara ünvanlandığı şeiri yada düşür:

Biz mənalı sözlərin keşiyində dururuq.
Lakin söz var, onu çox
İşlədirik, yoruruq.
Aramsız çeynənən söz
Üzdü dili, dodağı.
Təkrar yordu qələmi,
Yordu gözü, qulağı.
Həqiqətən ağırdır
İnsafla baxsaq əgər,
Çox da ki, yoxdur dili,-
Söz də dincəlmək istər.




### Talesiz durğu işarələri...

Durğu işarələrinin bugünkü vəziyyətini görəndən sonra bu qənaətə gəlirəm ki, talesizlik tək insanın nəsibi olmurmuş. Durğu işarələrinin də bu fani dünyada bəxti gətirməyə bilərmiş. Mətbuat nümunələrində gördüyümüz mənzərə durğu işarələrinin talesizliyindən söhbət açır.

Bəzən elə kitab, elə məqalə ilə qarşılaşırıq ki, durğu işarələrinin buradan tamamilə qovulduğunun şahidi oluruq. Deyirsən, haradadır görəsən bu durğu işarələri? Sanki payız küləyi gəlib onları qarşısına alıb aparıb haradasa xəzəl yarpaqların altında gizlədib. Bu səbəbdən də onların birini belə görmək mümkün deyil.

Bəzən isə durğu işarələri yersiz işlədilir ki, bu zaman onların daha talesiz olduğu ortaya çıxır. Çünki oxuyarkən vergülü danlamağa başlayırıq ki, burada artıqdır, ya da burada nə üçün yoxdur,-deyirik. "O, diyar başdan-başa gözəllikdir. O Vətən oğludur" kimi cümlələrlə vergülü çətin bir vəziyyətə qoyuruq. "Bu bizim qərarımızdır. Bu, tərəf meşəlidir" cümlələri ilə işarə və şəxs əvəzliklərini bir-birinə qurban edib yeni bir orfoqrafiya qaydası yaradırıq.

Bəzən nöqtələr fikrimizi tamamlamır, bəzən sual verdiyimiz halda sual işarəsinə ehtiyac duymuruq, bəzən nida cümləsində nida işarəsinə lüzum görmürük. Beləliklə də durğu işarələrinin üzərindən bir xətt çəkib onları öz qara bəxtləri ilə baş-başa buraxırıq.

Durğu işarələri ilə bağlı Fecebook sosial şəbəkəsində 25 mart 2020-ci il tarixdə Beyləqanlı adlı şəxsin statusunda paylaşdığı bir yazı da mənə çox maraqlı gəldi, düşündüm ki, sizlər üçün də maraqlı olar:

### İtirilmiş durğu işarələri....

"Bir gün insan vergülü itirdi. O zaman fikirləri bir-birinə qarışdı, mürəkkəb cümlələr qurmaqdan qorxdu. Bəsit cümlələr qurmağa başladı. Cümlələri bəsitləşdikcə, fikirləri də bəsitləşdi.

Nöqtəni itirdi Fikirləri uzandıqca uzandı. İfadə edə bilmədi özünü.

Başqa bir gün nidanı itirdi. Səs tonunu dəyişdirmədən danışmağa başladı, monotonlaşdı. Ətrafda baş verən heç bir şey onda kiçik bir həyəcan belə doğura bilmədi. Sevincini, qəzəbini - bütün duyğularını itirdi.

Sual işarəsini itirdiyi andan sual verməyi unutdu. Hər şeyi olduğu kimi qəbul etməyə başladı. Nə dünya, nə insanlar, nə də həyat onu maraqlandırmadı.

İki nöqtəni itirdi və heç nəyi aydınlaşdırmaq ehtiyacı duymadı.

Həqiqətən də belədir. İtirə-itirə, ehtiyac duymaya-duymaya gedirik. Həm də faciəvi tərəfi ondadır ki, dilin qeydinə ən çox qalmalı olan biz mətbuat işçiləri itirməkdən əsla məyus olmuruq. Və düşünmək də istəmirik ki, yazdığımız hər bir söz düzgünlüyü ilə də, səhvi ilə də minlərlə insanın göz yaddaşına çevrilir. Minlərlə gəncə guya ki, düzgün yazı qaydalarını təbliğ edirik. Əslində isə yox...

Nəticədə isə, dilim-dilim doğrasalar da, dilimizdən dönən deyilik,-dediyimiz təqdirdə öz əllərimizlə dilimizi dilim-dilim edib yerə səpələyirik. Bəlkə aradabir lüğətə baxaq... Çox vaxt aparmaz, inanın!

Bu il milli mətbuatımızın 150 yaşı tamam olur. Ötən 150 ildə öyrənmədiklərimiz və öyrənmək istəmədiklərimiz bu qocaman mətbuata saygısızlıqdan başqa bir şey deyil. Odur ki, ən birinci saygını öyrənək ki, saygılı olaq, sonra öyrənməyə borclu olduqlarımızı öyrənək. Bu zaman 150 illik yoldan ötməyə bəlkə bizim də bir az haqqımız olar.

***Mətanət Məmmədova***

# Qurban bayramında heyvanlar harada və necə kəsilməlidir?






*QURUMDAN VƏ EKSPERTDƏN AÇIQLAMA*

***Qurban bayramı müsəlmanların ən müqəddəs bayramlarından biridir. Hər il hicri təqviminə görə Zilhiccə ayının 10-da qeyd olunur. Bu bayram İbrahim peyğəmbərin (ə) Allahın əmrinə itaət edərək oğlu İsmayılı qurban etməyə hazır olması ilə bağlıdır. Allah bu səmimi itaətinə görə ona göydən bir qoç göndərdi və oğlunu əvəz etdi. O gündən bəri müsəlmanlar bu hadisəni yad etmək, Allah'a yaxınlaşmaq və itaətkarlıq ruhunu yaşatmaq üçün qurban kəsirlər.***

Bayram günü insanlar səhər tezdən bayram namazı qılır, bir-birini təbrik edir, kasıbları sevindirir, qurbanlarını kəsib, ətini ehtiyacı olanlara paylayırlar. Kəsilən qurban Allaha yaxınlaşmaq niyyəti ilə edilir. Qurbanlıq heyvan sağlam, halal və müəyyən yaşda olmalıdır. Koyun, keçi, inək, camış və dəvə qurban edilə bilər. Qurban Bayramı həm də paylaşmaq, yardımlaşmaq, bir-birinə mərhəmət göstərmək bayramıdır. Eyni zamanda ailə və qohumlarla birlikdə sevinclə keçən bir gündür. Bayram günləri, xüsusilə də ilk günü, müsəlmanlar üçün dua, zikr, ibadət və sədəqə ilə dəyərləndirilməli günlərdir.

**İlhaiyyatçı, publisist Hacı Rahim İsmayılov:** "Ümumiyyətlə, qurban ibadəti həccdə olan insanlar üçün vacibdir. Yəni, həccə gedən müsəlmanlar — dünyanın hansı tərəfindən olursa-olsun — həccin əməllərini yerinə yetirdikdən sonra Zilhiccə ayının 10-u günü, Mina çölündə, qurban bayramı günü qurban kəsmək onlara vacibdir. Bu, yalnız həcc ziyarətində iştirak edənlərə aiddir.

Bəs həccə getməyənlər necə? Onlar qurban kəsə bilərlərmi? Bəli, qurban kəsmək həccdə olmayan müsəlmanlar üçün vacib deyil, lakin müstəhəbdir — yəni tövsiyə olunur və böyük savabı vardır. Kimlər kəsə bilər? İmkanı olanlar. Yəni əgər bir insan qoyun alaraq qurban kəsməyi düşünürsə, o malı öz ailəsinin ruzisinə, geyiminə, dərmanına və digər vacib ehtiyaclarına zərər vermədən alırsa — bu halda onun üçün qurban kəsmək savabdır. Əgər bu qurban üçün ayrılan pul, məsələn, övladının məktəb geyimini almağa çatmayacaqsa, yaxud borclu olduğu birinin pulunu qaytarmaq yerinə qurban alırsa, bu artıq məqbul sayılmır. Hətta Allah dərgahında qəbul olunmaya bilər.

Qurban niyyəti də çox önəmlidir. Niyyət belə olmalıdır: "Allah rizası üçün, Allah'a yaxınlaşmaq üçün, İsmail (ə) qurbanına bənzər olaraq, bu qurbanı Zilhiccə ayının 10-da və ya ondan sonrakı bayram günlərində kəsirəm." Yəni niyyət "qurbətən iləllah" olmalıdır. Ən gözəli budur ki, ailə başçısı özü şəxsən qurbanı kəssin.

### Qurban edilə biləcək heyvanlar hansılardır?

Qoyun və keçi – yalnız bir nəfər üçün kəsilə bilər. Yəni iki-üç nəfər bir yerdə pul qoyub bir qoyun alıb onu qurban edə bilməz. Bu şəriətə uyğun deyil. Lakin inək, camış və dəvə kimi böyük heyvanlar isə yeddi nəfərə qədər şərik tərəfindən kəsilə bilər. Ən fəzilətlisi bir nəfərin bir heyvan kəsməsidir, amma imkanlar daxilində bir neçə nəfərin bir heyvana şərik olması da caizdir.

Ən çox eşidilən suallardan biri: İki ayaqlılardan qurban olmaz — bu xalq arasında belə deyilir. Yəni qurban yalnız dörd ayaqlı heyvanlardan olmalıdır: qoyun, keçi, inək, camış və dəvə.

### Qurbanlıq heyvanın yaşı nə qədər olmalıdır?

Qoyun və keçi – 1 yaşında olmalıdır (bəzən 6 aylıq, əgər kök və iri görünürsə, kəsilə bilər).

İnək və camış – 2 yaşında,

Dəvə isə – 5 yaşında olmalıdır.

Qurbanlıq heyvan hansı xüsusiyyətlərə malik olmalıdır?

• Heyvan pak, təmiz və sağlam olmalıdır.

• Kor, topal, xəstə və ya aşırı arıq olmamalıdır.

• Halal olmalıdır – yəni kiminsə haqqı keçmiş pul ilə alınmamalıdır.

Məsələn, həyat yoldaşının, uşağının, borclunun haqqını yeyib onunla qurban kəsmək olmaz.

Qurban harada və necə kəsilməlidir?

• Heyvan üzü qibləyə çevrilməli, boğazı qibləyə baxmalıdır.

• Kəsən şəxs müsəlman və halal yeyən biri olmalıdır.

• "Bismillah, Allahu Əkbər" deyərək kəsmək mütləqdir.

• Nəfəs borusu və qida borusu kəsilməlidir.

• Heyvana əziyyət verilmədən, mərhəmətlə kəsilməlidir.

• Kəsim yeri təmiz olmalı, şəri qaydalara uyğun olmalıdır.

Qurban ətinin satılması məsələsinə gəlincə:

Qurban əti satıla bilməz. Əgər bir şəxs qurban niyyəti ilə heyvan kəsir və sonra ətini satırsa, bu, günahdır və ibadəti batil edə bilər. Qurban yalnız Allah rizası üçün kəsilməlidir və əti sədəqə olaraq, yaxud hədiyyə olaraq paylanmalıdır.

Qurban ətinin paylanması necə olmalıdır?

• 3 yerə bölmək olar:

• 1 hissəsi – kasıblara və ehtiyacı olanlara verilməlidir.

• 1 hissəsi – qohum-əqrəba və qonşulara verilə bilər.

• 1 hissəsi – ailə üzvləri üçün saxlanıla bilər.

• Bəziləri 7 yerə bölməyi tövsiyə edirlər:



• 5 hissə – ehtiyacı olanlara,

• 1 hissə – qonşulara və qohumlara,

• 1 hissə – ailənin öz istifadəsi üçün.

Ən gözəli, qurban ətini daha çox kasıblara və ehtiyac sahiblərinə verməkdir".

**Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinə də heyvan kəsim məntəqələri ilə bağlı sorğu ünvanladıq.** Qurumdan SiA-ya verilən məlumata görə, Qurbanlıq heyvan kəsimi və satışının müvafiq norma və qaydalara uyğun, sağlam və rahat şəraitdə həyata keçirilməsi məqsədilə bu il ölkə üzrə 126 ünvanda qurbanlıq heyvanların satışı və kəsimi xidmətləri təşkil olunacaq. Bunlardan 70-də həm kəsim, həm satış, 29-da qurbanlıq heyvanların yalnız satışı, 27-də isə yalnız heyvan kəsimi xidmətləri təklif olunacaq. Həmin məntəqələrdə baytarlıq nəzarətindən keçmiş və sanitar-gigiyenik tələblər gözlənilməklə kəsilmiş qurbanlıq heyvanlar əhaliyə təqdim olunacaq. Bununla yanaşı, bir sıra regionlarda Qida Təhlükəsizliyi Agentliyi ilə razılaşdırılmaqla səyyar heyvan kəsimi çadırları quraşdırılaraq qurbanlıq heyvanların baytarlıq nəzarəti altında kəsimi və satışı təmin ediləcək.

Həmçinin ölkə ərazisində fəaliyyət göstərən müvafiq infrastruktura malik ticarət şəbəkələri tərəfindən sifarişlərə uyğun bayram günlərində qurbanlıq heyvan ətinin vətəndaşlara çatdırılması nəzərdə tutulur. Bununla bağlı həmin satış şəbəkələri tərəfindən ətraflı məlumatlar veriləcək. Vətəndaşlar bayram günlərində saat 08:00-dan 20:00-dək qurbanlıq heyvanları satmaq, almaq və ya kəsdirmək üçün yuxarıda qeyd edilən xidmətlərdən istifadə edə bilərlər.

***Ayşən Vəli***

# "Peşə təhsili sanki son çıxış yolu kimi görülür"



ŞƏRH

**"Cəmiyyətdə hələ də belə bir düşüncə mövcuddur: ali təhsil mütləqdir, peşə təhsili isə ikinci dərəcəlidir. Bu yanaşmanın bir sıra mədəni, tarixi, sosial və iqtisadi səbəbləri var". Bu sözləri S A-ya açıqlamasında təhsil eksperti Rizvan Fikrətoğlu deyib. O bildirib ki, tarixi-mədəni baxış bucağından desək, bu düşüncə Sovet dövründən qalma bir irsdən qaynaqlanır: "O zaman ali məktəb bitirmək intellektual status, təminatlı həyat və yüksək ictimai mövqe kimi qəbul edilirdi. Peşə təhsili isə daha çox fəhləliklə, aşağı əməkhaqqı ilə, fiziki zəhmətlə assosiasiya olunurdu. Bu stereotiplər bu gün də bir çox insanda qalmaqdadır.**

Peşə təhsili sanki uğursuzluğun nəticəsi, son çıxış yolu kimi görülür. Sosial status və ailə təzyiqi də burada mühüm rol oynayır. Bir çox valideynlər övladlarının universitetə daxil olmasını ailə şərəfi və nüfuz məsələsi kimi qiymətləndirir. Əgər bir gənc peşə məktəbinə gedirsə, bu, cəmiyyətdə "oxuya bilmədi", "tənbəl oldu" kimi qəbul edilir. Beləliklə, sosial təzyiq gəncləri bacarıq və maraqlarına uyğun yox, yalnız diplom əldə etmək naminə ali təhsil almağa məcbur edir.

Peşə təhsilinin zəif imici hələ də aktual problemdir. Burada peşə təhsili müəssisələrinin də məsuliyyəti var. Tədrisin keyfiyyəti aşağıdır, texniki baza və avadanlıqlar köhnəlib, təcrübə imkanları məhduddur. İşəgötürənlərin də peşə məktəblərinə inamı zəifləyib. Bütün bunlar insanlarda peşə məktəblərinin vaxt itkisi olması düşüncəsini formalaşdırır. Bizdə hələ də belə bir inam mövcuddur: "Ali diplomun varsa, yaxşı iş taparsan." Halbuki reallıq göstərir ki, ali təhsilli insanların çoxu işsizdir. Amma bu köhnə psixoloji şərtlənmə hələ də qırıla bilmir. Maraqlıdır ki, elə peşə sahibi insanlar var ki, məsələn, avtomobil ustası, rəngsaz çox vaxt ali təhsillilərdən daha çox qazanırlar. Bunu hamımız görürük, bilirik. Amma yenə də peşə məktəblərinə münasibət dəyişmir. Bu münasibət dəyişməlidir. Dövlət və özəl sektor hələ də peşə təhsilinə tam güvənmir. Bir gənc peşə məktəbini bitirsə belə, onun işlə təmin olunacağına dair konkret və davamlı təşviq sistemi yoxdur. Bu da gəncləri bu yola getməkdən çəkindirir. Amma bu vəziyyəti dəyişmək mümkündür və bir sıra ölkələr bunu bacarıb. Məsələn, Almaniya və İsveçrə kimi ölkələr peşə təhsilinə böyük əhəmiyyət verir. Orada peşə məktəblərinin maddi-texniki bazası güclüdür, tədris müasir tələblərə cavab verir, işəgötürənlərlə birbaşa əməkdaşlıq qurulur. Tələbələr həm nəzəri, həm də praktiki biliklər əldə edirlər. Bu ölkələrdə peşə məktəbi tələbələri işsiz deyillər – onlar təhsil aldıqları sahə üzrə real iş imkanları əldə edirlər. İşəgötürən müəssisə konkret sayda vakansiya elan edir və həmin ixtisasa uyğun təhsil alan tələbələrlə birbaşa işləyir. Beləliklə, peşə təhsili ilə əmək bazarı arasında sıx əlaqə yaranır".

"Peşə təhsili ilə bağlı müsbət nümunələr və uğur hekayələri cəmiyyətə təqdim edilməlidir. Valideyn maarifləndirilməli, gənclərə aşılanmalıdır ki, peşə sahibi olmaq da böyük uğurdur.

Son olaraq qeyd edim ki, cəmiyyətdə ali təhsilin dəyərli olması normaldır. Amma peşə təhsilinin "son çarə" kimi görülməsi artıq ciddi ictimai və struktur problemdir. Bu münasibət dəyişməlidir. Çünki bu gün əmək bazarının tələbi kağız diplom deyil, bacarıqlı və texnoloji biliklərə malik insanlardır. Peşə təhsilinin nüfuzunu artırmaq üçün dövlət, cəmiyyət və media birgə çalışmalıdır. Elə bu müsahibənin yayımlanması belə, bu sahədə maarifləndirmə və təbliğat işinin bir hissəsidir" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# Paşinyan kilsəyə qarşı



## Ermənistandakı seçki prosesləri getdikcə qızışır...

Ermənistan müxalifəti bəyan edib ki, Nikol Paşinyan hökuməti Azərbaycanla "təslim olmaq haqqında saziş" imzalamağa çalışır. Eyni zamanda, baş nazirin opponentləri onun uğur qazana bilməyəcəyinə əmindirlər. Əvəzində növbəti parlament seçkilərindən sonra Paşinyanın komandasının üzvlərinin Bakıya köçəcəyi iddia edilir. Bu arada, Ermənistan rəhbərinin partiyası hələ də ölkədə ən populyardır və müxalifət təşkilatlarının dəstəyi statistik səhvi bir qədər üstələyir. Yeni tənqid dalğasına səbəb Nikol Paşinyanın və Ermənistan parlamentinin sədri Alen Simonyanın açıqlamaları olub. Belə ki, Baş nazir Respublika Günü münasibətilə həmvətənlərinə müraciət edərək bildirib ki, ermənilərə onsuz da malik olduqları və beynəlxalq ictimaiyyət tərəfindən tanınan torpaqdan başqa vətən lazım deyil. "2020-ci ildən biz ağır sınaqlardan keçərək, suverenliyimizi inkişaf etdirmək, dövlətçiliyimizi reallaşdırmaq və onu davamlı etmək üçün tarixi imkan əldə etmişik. Bu gün biz həmişəkindən daha çox dövlətik, bu gün hər zamankından daha suverenik, bu gün biz həmişəkindən daha müstəqilik", - Paşinyan vurğulayıb.

Eyni zamanda o, İrəvanın Azərbaycanla sülh müqaviləsi imzalamağa yaxın olduğunu, Türkiyə ilə əlaqələr qurduğunu, Rusiya, Çin, İran, Aİ və ABŞ ilə strateji tərəfdaşlıq əlaqələri inkişaf etdirdiyini xatırladıb. "Sülh və təhlükəsizlik Ermənistan Respublikasının uzunmüddətli yoldaşlarına çevriləcək. Müharibə olmayacaq - sülh olacaq", - Paşinyan yekunlaşdırıb.

Öz növbəsində Simonyan bildirib ki, Azərbaycanla sülh müqaviləsi ermənilərə Bakıda yaşamağa və azərbaycanlılarla ticarət etməyə imkan verəcək. Amma bunun üçün revanşist hisslərdən əl çəkməlidirlər. "Dünyanızda yaşamağı dayandırın - Ermənistanın tarix dərsliklərində, guya bütün başqaları əhəmiyyətsiz millətlərdi, çünki biz ermənilər duduq olanda, ərik yetişdirəndə başqa millətlər ağaclarda yaşayırdı, bu yanaşmadan əl çəkin, Ermənistanı və onun gələcəyini məhv etməyin... Sülh müqaviləsi imzalananda ermənilər Bakıda yaşaya biləcəklər. İndi də eyni məntiqlə?", - deyə parlamentin sədri bildirib.

Buna cavab olaraq Ermənistanın keçmiş prezidentləri Serj Sarkisyan və Robert Köçəryanın ətrafında toplaşan müxalifətin həmin hissəsi hökuməti növbəti milli xəyanətdə ittiham etməyə başlayıb. Məsələn, "Ermənistan" blokunun deputatı İşxan Saqatelyan deyib ki, Simonyan bütün ermənilərdən deyil, şəxsən özü haqqında danışır. "Hakimiyyət dəyişikliyindən sonra Simonyanın yaşaya biləcəyi yeganə yer Bakıdır", - deyə siyasətçi bildirib.

Bu arada rəy sorğuları göstərir ki, Paşinyan və onun Mülki Müqaviləsi (MM) partiyası ölkədə ən populyar siyasi qüvvə olaraq qalır. Belə ki, Qafqaz Araşdırmaları Resurs Mərkəzi iddia edir ki, 2019-cu ildə seçicilərin 35%-nin, 2021-ci ildə 22%-nin, 2024-cü ildə isə 15%-nin qeyd-şərtsiz dəstəyini qazanıb. Beləliklə, beş il ərzində partiyanın reytinqi təxminən iki dəfə aşağı düşüb, lakin baş verən hadisələri nəzərə alsaq, bunu yenə də yaxşı nəticə hesab etmək olar. Müqayisə üçün deyək ki, müxalifət daha pis işləyir. 2021-ci ildə İkinci Qarabağ müharibəsində məğlubiyyətdən sonra Robert Köçəryanın "Ermənistan" bloku seçicilərin 8 faizinin dəstəyini qazanıb. Ancaq 2024-cü ildə yalnız 4% ona etibar edib. Üçüncü yerdə oliqarx Qaqik Tsarukyanın "Çiçəklənən Ermənistan" partiyası qərarlaşıb və hər il təxminən 4% ona etibar edir. Digər siyasi qüvvələr ən yaxşı halda respondentlərin 2-3%-i ilə məşhurdur. Sosioloqların hesablamalarına görə, 2024-cü ildə Ermənistan sakinlərinin 55%-i indiki siyasi qüvvələrin heç birini dəstəkləmir. 2019 və 2021-ci illərdə bu rəqəm müvafiq olaraq 42% və 43% olub.

MDB İnstitutunun Ermənistan bölməsinin rəhbəri Aleksandr Markarov bildirib ki, Mülki Müqavilə obyektiv olaraq parlamentdə çoxluğa malik olan və icra hakimiyyətini həyata keçirən ölkənin əsas siyasi qüvvəsidir. Müxalifət də öz növbəsində neqativ gündəmə köklənib, amma birləşə bilmir. "Paşinyan opponentlərinin 2026-cı ildə keçiriləcək parlament seçkilərində iştirak kampaniyasına başlamaq üçün çox az vaxtı qalıb. Eyni zamanda, Dövlət Duması, əlbəttə ki, 15%-lik dəstəklə kifayətlənməyəcək, lakin onun başlanğıc mövqeləri bir qədər yaxşıdır. Proqnoz vermək üçün hələ tezdir, lakin gələn il hakim partiyanın hətta muxalifət partiyası ilə həmkarlıq etmək şansı da var. Müxalifət Gümrünün uğurunu təkrarlamağa ümid edir, burada ayrı-ayrılıqda müxtəlif partiyalar Dövlət Dumasından daha az səs toplayıb, lakin onlar birlikdə çoxluq təşkil edə bilmişlər", - deyə Markarov bildirib.

Ekspertin fikrincə, bir çox seçicilər müxalifətin liderlərinə görə səs verməkdən imtina edir, onların Paşinyandan da çox şikayətləri var. Eyni zamanda cəmiyyətdə "üçüncü qüvvəyə" tələbat var ki, bu da hələ reallaşmayıb. 2024-cü ildə arxiyepiskop Baqrat bu rolu iddia etdi, lakin onun qaldırdığı etiraz dalğası heç bir nəticə vermədi və bu gün onun hərəkatını dirçəltmək mümkün deyil. "Hakim partiyanın reytinqinin aşağı düşməsi bütün dünyada, o cümlədən Avropada rejimlərin keçdiyi təbii prosesdir. Amma Ermənistanda vəziyyət təhlükəsizlik problemləri ilə daha da gərginləşir. Eyni zamanda, qeyd etmək lazımdır ki, hakim partiya 2018-ci ildə görünməmiş populyarlıqdan istifadə edə bilməyib. Bütün etimad krediti öz partiyasına deyil, parlamentə səsvermədə sadiq olan deputatların seçilməsinə sərf olunub. mahiyyət etibarı ilə Ermənistan öz adi konfiqurasiyasına qayıdır: bir tərəfdən zəif legitim hökumət, digər tərəfdən isə eyni dərəcədə zəif və əlavə olaraq birləşməyən müxalifət", - Qafqaz İnstitutunun rəhbəri Aleksandr İskəndəryan bildirib.

### Paşinyan qitənin yox, öz dərdini çəksin

Rusiya lideri Vladimir Putin Ermənistanın baş naziri Nikol Paşinyanı 50 illik yubileyi münasibətilə təbrik edib. Rusiya lideri həmkarına möhkəm cansağlığı, xoşbəxtlik və dövlət işində uğurlar arzulayıb, həmçinin Avrasiya məkanında sabitlik, təhlükəsizlik və firavanlıq naminə dövlətlərarası münasibətlərin daha da inkişaf etdirilməsinin tərəfdarı olduğunu bildirib. Lakin hələlik Paşinyan daha çox qitənin problemləri ilə deyil, erməni kilsəsinin taleyi ilə maraqlanır. Ermənistan hökumətinin başçısı yubiley ərəfəsində Erməni Apostol Kilsəsini kilsələrinə qeyri-adekvat münasibətinə görə tənqid etmək qərarına gəlib. Eyni zamanda, keşişləri yalançılıqda ittiham edib, çünki onlar ateist olduqları halda müqəddəsdən danışırlar.

Eçmiədzin kanserinin rəhbəri, arxiyepiskop Arşak Xaçatryan cavab olaraq bildirib ki, Paşinyan təhsildən məhrum olmaqla yanaşı, ictimai düzgün ünsiyyət və məsələləri dərindən dərk etməkdə daxili böhran nümayiş etdirir. Eyni zamanda, Xaçatryan xatırladıb ki, 2019-cu ildən bəri Erməni Apostol Kilsəsi dəfələrlə respublikanın hakimiyyət orqanlarından dini abidələrin qorunmasına köməklik göstərməyi xahiş edib, lakin hələ də cavab yoxdur. "Ola bilsin ki, Qarabağda məhv olmaq təhlükəsi altında olan ziyarətgahların qorunub saxlanması ilə bağlı həyati vacib məsələlər də dövlət başçısının diqqətində olacaq", - arxiyepiskop yekunlaşdırıb.

Paşinyanın reaksiyası özünü çox gözlətməyib. O, sosial şəbəkədə keşişi kobud şəkildə söyüb. Bundan əlavə, o, özünə sual verib: subaylıq andını pozan keşişlə nə etməli? "İndi etik cəhətdən daha dürüst olan nədir: könüllü istefa vermək, yoxsa ruhi iztirablara yol vermək – araşdırma aparılacaqmı, həqiqət üzə çıxacaqmı? Paşinyan qeyd edib. Bütün bunlar o qədər gözlənilməz və vulqar idi ki, bir çoxları baş nazirin hesabının pis niyyətlilər tərəfindən sındırıldığına qərar veriblər. Bununla belə, Paşinyana həyat yoldaşı Anna Akopyan dəstək verib və o, baş nazirin səmimiliyinə dair bütün şübhələri aradan qaldırıb.

Erməni mediası Paşinyanın kilsəyə qarşı hücuma keçməsini və bununla da öz həmvətənlərinə ölkənin inkişafına mane olan istənilən elita təmsilçisinə qarşı barışmaz mübarizəyə hazır olduğunu nümayiş etdirməsini təklif edib. Xüsusilə, o, "İt" kimi tanınan blogger Vartan Qukasyanın ritorikasını köçürüb. Bundan əvvəl o, 2023-cü ildə İrəvan Ağsaqqallar Şurasına keçirilən seçkilərdə 10,51 faiz səs toplayan "Xalqın səsi" partiyasını yaradıb. Eyni zamanda, ictimai-siyasi müzakirəni aşağı səviyyədə saxlamaq Paşinyana sərfəli ola bilər, çünki bu, onun hakimiyyəti ilə bağlı ən çətin suallardan yan keçməyə imkan verir.

Rusiya-Ermənistan Universitetinin dosenti Anton Evstratov bildirib ki, Paşinyanın kilsəyə təzyiqi həm də onun 2018-ci ilin məxməri inqilabından sonra mövqeyini qoruyub saxlayan Ermənistanın hakim elitasının sonuncu nümayəndəsini vəzifəsindən uzaqlaşdırmaq istəyi ilə bağlı ola bilər. "Hökumətlə kilsə arasındakı qarşıdurmanın açıq şəkildə iyrənc təzahürlərindən mücərrəd etsək, deməli, katolikos Qaregin inqilabdan əvvəlki Ermənistanın bu günlərdə özünü rahat hiss edən sonuncu nümayəndəsidir. Eyni zamanda, kilsə müxalifət üçün rejimə müqavimət simvollarından biridir. Katolikosun seçilməsi başa düşüləndir, lakin bu, milli ənənələrə ziddir, buna görə də, bir neçə əsr ərzində, o, ümumiyyətlə, mövcud deyildi, "Kilsə, əksinə, bir sıra baxımdan dövləti əvəz edən erməni xalqı idi".

**V.VƏLİYEV**

ANALİTİK

# Bütün xəstəliklərin təməli – yod çatışmazlığı



***Dünyanın 130 ölkəsində ciddi sağlamlıq problemi hesab edilən yod çatışmazlığı uşaqlarda inkişafı ləngidir, böyüklərdə isə zob və döş xərçənginə səbəb olur. Yod əskikliyi orqanizmdə erkən yaşlarda başlayaraq heç bir əlamət hiss etdirmədən inkişaf edir, zob və qalxanabənzər vəzin xəstəliklərinə səbəb olur.***

Qeyd edək ki, insan orqanizmi başqa beyin olmaqla bütün orqanların qaydasında işləməsi, inkişaf etməsi üçün yoda ehtiyac duyur. Xüsusilə hormonların fəaliyyətində əvəzsiz hesab edilən yod orqanizmdə çatışmasa ciddi xəstəliklərə yol açır. İnsan orqanizmi yod istehsal edə bilmir, buna görə də kənardan qəbul etməsi vacibdir. Biz adətən yodu duzlardan və yodlu torpaqlarda yetişdirilmiş qidalardan qəbul edirik. Dəniz məhsullarının tərkibində də bol yod var. Orqanizm yod əksikliyini həzm yolu ilə qəbul etməlidir.

Statistikaya görə, dünyada 1,88 milyard nəfər, o cümlədən 241 milyon məktəbyaşlı uşaq yod çatışmazlığından əziyyət çəkir. Sutkalıq yod dozası yaşı 6-dək olan uşaqlar üçün 90 mkq, 6-12 yaş arasındakı uşaqlarda 120 mkq, yaşı 13-dən yuxarı olan və yetkin insanlarda 150 mkq təşkil edir. Hamilə və laktasiya dövründə olan qadınlar isə sutkada 250 mkq yod qəbul etməlidirlər. Təəssüf ki, yer kürəsi əhalisinin təxminən üçdəbir hissəsi təbii yodun mövcud olmadığı yerlərdə yaşayır. Yod çatışmazlığına qarşı aparılan ən geniş yayılmış mübarizə strategiyası duzun yodlaşdırılmasıdır və hazırda dünyanın 120 ölkəsində həmin üsuldan istifadə olunur. Bir çox ölkələr bu işdə uğur qazanıb. Qeyd edək ki, süd məhsulları da yod mənbəyi hesab edilir. Odur ki, süd verən heyvanların yem məhsullarının yodlaşdırılması da əsas məsələlərdən biridir.

Yod çatışmazlığını halsızlıq, dəri quruluğu, saç tökülməsi, dərinin sərtləşməsi, qəbzlik, soyuğa dözümsüzlük, menstural tsiklin pozulması, saç və dırnaqlarda qırılmalar, piylənmə, yaddaş problemləri, diqqət pozuqluğu, depressiya, isterik hərəkətlər, ürək və ağcıyər yetməzliyi kimi əlamətlərlə anlamaq olar.

Xüsusilə hamilə və laktasiya dövründəki analarda yod əksikliyi ciddi problemlərə yol aça bilər. Hamilələrdə yod ehtiyacı iki dəfə artıq olur, əgər anada ciddi yod







əksikliyi varsa bu yarımçıq hamiləliyə, erkən doğuşa, anormal uşaq doğmağa və doğulan uşaqda anadangəlmə qalxanabənzər vəzin xəstəliklərinə səbəb ola bilər. Bundan əlavə ana yod ehtiyacını lazımı qədər təmin edə bilməsə bətnindəki körpəsi zehni problemlərlə doğula bilər. Uşaqlarda yod çatışmazlığı yaddaş və əqli problemlərə yol açır. Yaşının nəsilartırma mərhələsində olan qadınlarda yod çatışmazlığı hamiləliyin baş tutmamasına təkan verir. Hamilələrdə yod tələbatı döl əsasən 2-3 aylıq olarkən rastlanır, bu aylarda ana bətnindəki körpənin beyin inkişafı demək olar ki, tamamlanır.



Yod təminatını daha çox yodlu duzlardan alırıq, bundan əlavə dəniz məhsulları, pendir və qatıq, yumurta, tərəvəzlər də yod mənbəyidir. Bir kasa qatıq gündəlik yod ehtiyacının təxminən 60%-ni , 1 stəkan süd 40%-ni , 1 yumurta 20%-ni təmin edir. Meyvələrin tərkibində az olan yod karolyokun (xurma) və çiyələyin tərkibində nisbətən çoxdur.

İspanaq, soya paxlası, şalğam, pazı, balqabaq, quru paxla və sarımsaq kimi tərəvəzlərin yod nisbəti yüksəkdir. Bu tərəvəzləri eyni zamanda vitamin qaynağı və antioksidan olaraq istehlak edə bilərsiniz. Qidalardakı yod miqdarı yetişdikləri torpağın yod nisbətinin az və ya çox olması ilə əlaqədardır. Balıqlar (xüsusilə, duzlu su balıqları ) yod baxımından olduqca zəngindir və yod qaynağı olaraq istehlak edilə bilər. Yüksək yod faizi olan yodlu balıqlar arasında ilk sıralarda ton balığı, vitinq,









soyuq su və dərin dəniz balıqları yer alır. Krevet və digər qabıqlı dəniz canlıları da yod çatışmazlığının qarşısını almaq üçün istifadə edilə bilər.

1 qram yodlu duzdakı yod miqdarı 70 mikroqramdır, yəni orqanizm hər gün 2 qram yodlu duz qəbul etsə gündəlik yod ehtiyacını ödəmiş olur. Yodlu duz qəbul etdiyimiz müddət ərzində bədən tələbatını qarşılayır, amma yodlu əvəzində sadə duz istifadə etdiyimiz gündən etibarən bədən yenə yod çatışmazlığı yaşayacaq. Çünki orqanizm özü yod istehsal edə və depolıaya bilmir, bu səbəbdən də gündəlik qəbul edilməsi vacibdir. Yodlu duz nəm olmayan sərin yerdə, şüşə qabda saxlanmalıdır. Bundan əlavə, yodun uçmaması üçün yeməyə duzu bişib qurtardıqdan sonra və ya süfrəyə verərkən əlavə edilməlidir. Yemək qaynayanda duzun tərkibindəki yod təsirini itirir.

Etiraf edək ki, mağazalarda yodlaşdırılmış duz adı ilə texniki duz satılır. Ölkədə yodsuz duzun satışı qadağandır, hətta qanuna görə heyvanlara yem məqsədilə verilməsi də qadağandır. Lakin supermarketlərdə bu cür yodsuz duzlar satılır. Bu duzlar xüsusilə böyük şəhərlərdə çox yayılıb. Duz alarkən buraxılma tarixi və yaralılıq müddətinə diqqət yetirilməlidir. Çünki əsl duzda bu yazılar döymə üsulu ilə vurulur, kustar üsullarla hazırlanan duzlarda isə adi yazı ilə yazılır.

Qeyd edək ki, tərkibində 99,8 faiz natrium-xlorid olan duz kefiyyətli sayılır. Bunlar ekstra duzlardır və beynəlxalq tələblərə cavab verir. Ölkəmizdə 2001-ci ildə qəbul olunan "Duzun yodlaşdırılması haqqında" qanunun 8.3-cü maddəsinə əsasən, yodlaşdırılmamış duzun qida və yem məqsədilə istehsalı, satışı və ölkəyə daxili qadağan olunub. Bu MDB məkanında yeganə qanundur və effektiv olacağı elə qəbul edildiyi zaman hiss edilirdi. Bu səbəbdəndir ki, qanunun qəbulundan sonra Azərbaycanda bu xəstəliklərin miqdarı dəfələrlə azalıb. Azərbaycanda yodlaşdırılmış duzdan istifadə edən əhalinin faiz göstəricisi 2001-ci ildə 41 faiz idisə 2007-ci ildə bu faiz göstəricisi 77 faiz oldu.

***Lalə Mehralı***




# Füzuli şəhərində yeni "Nar" mağazası fəaliyyətə başladı




"Nar" asan və sərfəli rabitə xidmətlərini artıqFüzuli şəhərindəki yeni açılan mağazasında təqdim edir. Müasir dizaynlı mağazada nömrə satışı və müştəri xidmətləri ilə yanaşı, mobil telefon və aksessuar satışı da həyata keçirilir. Füzuli şəhəri, Heydər Əliyev prospektində yerləşən mağazanın əməkdaşları da Füzuli şəhərinin sakinləridir. Yeni mağazanın açılışında iştirak edən "Nar"ın baş icraçı direktoru Qunnar Panke bildirib: "Füzuli şəhəri yenidən qurulduqca, şəhərin əhalisi artdıqca, mobil rabitə xidmətlərinə də ehtiyac artır. Günbəgün dirçələn şəhərin əhalisinə mobil rabitə xidmətlərini daha əlçatan etmək üçün yeni mağazamızı məhz Füzuli şəhərində açmaq qərarına gəldik."

Bundan başqa, mağazanın xüsusi guşəsində Füzuli şəhəri, Mirzə Uluqbəy adına 1 saylı məktəbinin istedadlı şagirdlərinin çəkdikləri rəsmlər də nümayiş olunur. Bu rəsmlər "Nar"ın və YARAT Müasir İncəsənət Məkanının söz-ügedən məktəbdə "Böyük Qayıdış" mövzusunda keçirilən rəsm müsabiqəsinin seçilən əl işləridir. "Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Fransa ictimaiyyəti Makrondan qurtulmaq üçün aksiyalara başlayır

## *Etiraz aksiyalarının ölkənin 165 şəhər və qəsəbələrini əhatə edəcəyi gözlənilir*

***Dünyada mövcud olan müharibələr arasında ən dəhşətlisi və amansızı olan Rusiya -Ukrayna müharibəsini dayandırmaq üçün beynəlxalq təşkilatlar, ayrı-ayrı dövlətlər təşəbbüslər göstərsələr də, istəklərinə nail ola bilmirlər. Çünki qarşıduran tərəflər iddialarından bir addımda olsa geri çəkilmək fikrində deyillər. Ədalətli mövqedən çıxış edilsə, o zaman Rusiyanın haqsız tərəf olduğu məlum olar.***





Nədən ki, bu ölkə özünün imperiya hikkəsindən çıxış edərək müstəqil mövqe və siyasət yeritməyə çalışdığı üçün Ukraynanı qan gölündə boğmağa çalışdı. Bu səbəbdən də 2022-ci il fevralın 24-də Rusiya Ukraynaya qarşı genişmiqyaslı hücuma başladı və üç günə bitəcəyinə ümid edilən



müharibə üç ildən çoxdur ki, davam etməsi ilə nəticələndi. Bu gün də müharibə amansız formada davam etməkdədir. Şəhərlər, qəsəbələr və kəndlər dağıdılır, yüz minlərlə insan öz həyatlarından olurlar. Siyasi analitiklər hesab edirlər ki, müharibədə Rusiyanın itkiləri daha çoxdur. Çünki hücum edən tərəf Rusiyadır. Digər tərəfdən Rusiyanın silah-sursatı tükənməkdədir. Korrupsiya və rüşvətxorluğun tüğyan etməsi də Rusiya ordusunun fəaliyyətinə vurulan zərbələrdəndir. Rusiya əsgərləri müharibənin mənasız müharibə olduğunu şüurlu şəkildə dərk edirlər. Ona görə də, aktiv döyüşlər aparmaqdan yayınırlar və əksər hallarda fərarilik edirlər. Bu səbəbdəndir ki, Rusiya hərbi prokurorluğu tərəfindən döyüş mövqelərini özbaşına tərk etdiklərinə görə 57 min 346 nəfər əsgər və zabit haqqında cinayət işi qaldırılıb və onların əksəriyyəti həbs olunublar.

### Bir gündə Rusiyanın 40 strateji aviasiya təyyarəsi məhv edildi

Rusiya ordusunda, ümumilikdə isə hüquq-mühafizə orqanları sistemində hökm sürən xaosdan Ukrayna xüsusi xidmət orqanları qonşu ölkəyə maksimum zərbələrin endirilməsi üçün istifadə etmək imkanları əldə edirlər. İyunun 1-də Ukrayna tərəfinin Rusiyanın 5 aerodromuna və dəmir yolu sisteminə vurduğu zərbələr rəsmi Kiyevin həyata keçirdiyi unikal əməliyyatlardan hesab olunur. Xarici KİV-lərin iddiasına görə, Ukrayna Təhlükəsizlik Xidməti (SBU) Rusiyanın 40 strateji aviasiya təyyarəsini məhv etdiyi xüsusi əməliyyata il yarımdan çox müddətə hazırlanıb. Bildirilib ki, əməliyyatın gedişinə şəxsən Prezident Volodimir Zelenski nəzarət edib, planı isə UTX-nin rəhbəri Vasil Malyuk və Xidmətin əməkdaşları həyata keçirib.

Belə ki, əvvəlcə PUA-lar mobil taxta konteynerlər vasitəsilə Rusiyaya gətirilib və lazımi anda konteynerlərin qapaqları uzaq məsafədən idarə olunmaqla açılıb, PUA-lar havaya buraxılıb. Teleqram səhifələrində dronların Rusiya hərbi aerodromlarına hücuma necə hazırlandığını göstərən unikal fotoşəkillər paylaşıb. Belə bir əməliyyatın Ukrayna tərəfinin təkbaşına hazırlayıb, həyata keçirə biləcəyi inandırıcı deyil. Şübhəsiz ki, əməliyyat Fransa, Böyük Britaniya və Almaniya xüsusi xidmət orqanları ilə birgə hazırlanıb. Nəzərə almaq lazımdır ki, Almaniyanın yeni kansleri F.Mertzi vəzifə kreslosuna əyləşdikdən dərhal sonra Ukraynaya tədarük etdikləri uzaq mənzilli raketlərlə Rusiyanın dərinliklərini vurmağa icazə verən qərarı imzaladı. Hətta F.Mertzi Rusiyaya zərbələr endirə biləcəklərini bəyan edib. Almaniyanın Litvada 5 min nəfərlik ordu yerləşdirməsi F.Mertzin sözdən əmələ keçdiyinə işarə hesab olunur. Almaniya kanslerinin Ukrayna üçün silah çeşidinə qoyulan məhdudiyyətləri aradan qaldırmaq qərarı Rusiya ilə müharibəyə səbəb ola bilər. Onun adını daşıyan partiyanın lideri Sara Vaqenknext sosial şəbəkə hesabında yazdığı statusunda xəbərdarlıq edib. Və bu qərar artıq Suwalki dəhlizi boyunca yaşayan sərhəd bölgəsinin sakinlərinə də təsir edib (Litvanı Polşa ilə birləşdirir və Kaliningrad vilayətini Belarusla bölür).



"Bild" nəşri yazır ki, insanlar kütləvi şəkildə evlərini tərk etməyə başlayıblar. Axı, Qərb ekspertlərinin çoxdankı proqnozlarına görə, "Rusiya NATO-ya hücum edəcək". Merzin Rusiyaya zərbələr endirmək barədə sözlərindən sonra bu, hər an baş verə bilər. Almaniyada əhali ciddi narahat olmağa başlayıblar. Mertzi sonunda kimi qorxudur? Moskva isə reaksiyasına görə heç qorxmur.

### Fransa və Böyük Britaniya Ukraynaya ordu göndərir

Böyük Britaniya və Fransa öz qoşunlarını Ukrayna ərazisinə yerləşdirmək imkanını müzakirə edirlər. Bu barədə "The Telegraph" məlumat yayıb. Nəşrin iddiasına görə, Britaniyanın baş naziri Key Starmer və Fransa prezidenti Emmanuel Makron arasında bu məsələ ilə bağlı məxfi danışıqlar aparılır, eyni zamanda Britaniya və Fransa hərbçilərinin Ukraynaya sülhməramlı kimi gətiriləcəyi ehtimal edilir: "Starmer və Makron münaqişəni dayandırmaq üçün hər hansı razılaşma əldə edildikdən sonra öz əsgərlərini Ukraynaya sülhməramlılar kimi göndərməyi müzakirə edirlər".

Bu arada Litva Xarici İşlər Nazirliyi Kiyevin tələbi ilə Ukraynaya qoşun göndərilməsinə icazə verib. Belçika dövləti də Fransa və İngiltərənin rəhbərlik etdiyi "istəklilər koalisiyasına" qoşulmaq qərarına gəlib. Bu barədə Belçikanın müdafiə naziri Teo Franken Aİ xarici işlər və müdafiə nazirlərinin görüşündə bildirib."Biz atəşkəs əldə edildikdən dərhal sonra Böyük Britaniya və Fransa ilə birlikdə "istəklilər koalisiyasının" bir hissəsi kimi Ukrayna ərazisində fəaliyyətə başlamağa hazırıq", - Franken qeyd edib.

Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova qondarma "istəklilər koalisiyası"nı tənqid edərək, onu "müharibə tərəfdarlarının koalisiyası" adlandırıb. O, Fransa prezidenti Emmanuel Makron, Almaniya kansleri Fridrix Merz, Böyük Britaniyanın baş naziri Key Starmer və Polşa lideri Donald Tuskun Ukraynaya dəstək bəyanatlarının arxasında münaqişəni daha da gərginləşdirmək üçün gizli niyyətlərin olduğunu vurğulayıb.Böyük Britaniya və Fransa səfirləri Rusiya Xarici İşlər Nazirliyinə çağırılıblar. Britaniyalıya xəbərdarlıq edilib ki, əgər onun ölkəsi Rusiyaya qarşı uzaqmənzilli raketlərdən istifadə edərsə, biz Britaniyanın istənilən hərbi obyektini - istər Ukraynada, istərsə də ondan kənarda öz hədəfimizə çevirəcəyik.

### E.Makron təcrid olunur

Fransa dünyanın istənilən bölgəsində baş verən müharibə və münaqişələrdə əsas icraçılardan biri olaraq iştirak etməsi, bu ölkənin bəşəriyyətə qarşı vandal siyasət yürütdüyünü göstərir. Makron hakimiyyətinin Ukrayna-Rusiya müharibəsini alovlandırmağa daha çox meyil etdiyini müşahidə etmək olar. Çünki Makron rejimi Ukraynaya hərbi, siyasi dəstək göstərməklə kifayətlənməyib, əsgəri heyəti müharibə bölgəsinə göndəriləcəyini bəyan edib. Bu isə üçüncü dünya müharibəsinə yol aça bilər. Artıq Rusiya tərəfi Fransanı hədələyib və Parisin təhlükə ilə üzləşə biləcəyini qeyd edib. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov isə Fransa prezidenti Emmanuel Makronu açıq şəkildə təhqir etməkdən çəkinməyib. Peskov VGTRK telekanalına müsahibəsində Makronun ailəsində baş verən şillə qalmaqalı ilə bağlı maraqlı açıqlama verib. Bildirib ki, əgər qadın ərinə şillə vurursa, bu, heç vaxt səbəbsiz olmur. Amma bu, bizim işimiz deyil: "Peskov onu da qeyd edib ki, Emmanuel və Bricit Makronun ailə münasibətləri ictimai müzakirəyə çıxarılmamalıdır.



Makron ailəsinin münasibətləri onların öz işləridir və bu cür məsələlər ictimaiyyət qarşısında müzakirə olunmamalıdır".

Xatırlatmaq üçün qeyd etmək lazımdır ki, qalmaqallı hadisə mayın 26-da Vyetnamın Hanoy şəhərində prezident təyyarəsində baş verib: Fransanın brinci xanımı Bricit Makron təyyarədə həyat yoldaşı, prezident Emmanuel Makronun üzünə şillə vurub. Bundan sonra Bricit Makron təyyarədən enərkən Emmanuel Makronun ona uzatdığı kömək əlini də nümayişkaranə şəkildə rədd edib. Dodaqdan oxuyan ekspertlər həmin vaxt Fransanın birinci xanımının nə dediyini müəyyən edə biliblər. Bu anlar fotoqrafların obyektivlərinə tuş gəlib və qısa zamanda sosial şəbəkələrdə yayılaraq müzakirələrə səbəb olub.

Bricit Makron təyyarədə həyat yoldaşı, prezident Emmanuel Makronun üzünə şillə vurması onu deməyə əsas verir ki, Makronun Fransa cəmiyyətində olduğu kimi, ailəsində də hörmətdən düşüb. Yaxın vaxtlarda ona qarşı daha açıq təhqir elementlərindən istifadə edilsə, bu, heç də təəccüblü görünməyəcək. Daha doğrusu, artıq Fransa cəmiyyətində Makron hakimiyyətinə qarşı yeni etirazların baş qaldırması və əhalinin "istefa" çağırışları ilə meydanlara axışması onu deməyə əsas verir ki, çox yaxın vaxtlarda Fransada yeni hakimiyyət dəyişikliyi baş verəcək. NFP, LFI, PCF və digər siyasi təşkilatların təşkilatçılığı ilə iyunun 17-dən başlayaraq ölkədə kütləvi aksiyaların keçirilməsinə qərara verilib. "Bild" nəşrinin yazdığına görə, "Emmanuel Makron istefa ver", "Makronsuz Fransa istəyirik" və digər şüarlarla ölkənin 165 şəhər və qəsəbəsində aksiya keçiriləcək. Təşkilatçılar aksiyalar nəticə verənə qədər davam etdirəcəklərini bəyan ediblər. Bu isə onu söyləməyə əsas verir ki, artıq E.Makronun hakimiyyətdə, ümumilikdə isə siyasətdə mövcudluğu özünün sonuna yaxınlaşır.

**İLHAM ƏLİYEV**



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "uşaq və gənclərin fiziki və mənəvi inkişafı " istiqaməti çərçivəsində hazırlanıb.*



# Velosipedlə hərəkət: yaşıl dünya və sağlam insan



***Ümumdünya Velosiped Günü 2018-ci ildə BMT-nin 193 üzvünün yekdil səsi ilə 3 iyunda qeyd edilir. Beləcə, Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası sadə, qənaətcil, etibarlı və dayanıqlı nəqliyyat vasitəsini təmsil edən velosipedin unikallığını, uzunömürlülüyünü və universallığını bütün dünyada tanıdı. Velosiped təkcə nəqliyyat üçün deyil, həm də səhiyyə xərclərini azaldan, habelə sağlam orqanizmə yol açan vasitədir.***



Hər gün velosiped sürmək artıq çəkidən xilas olmaq və formada qalmaq üçün ən yaxşı üsuldur. Çünki müntəzəm olaraq gündə yarım saat velosiped sürməklə 300-400 kalori yandırmaq mümkündür. Velosiped sürmək xolesterol səviyyəsini tarazlaşdırır, qan dövranı sistemini tənzimləyir və ürək xəstəliklərinin qarşısını alır. Velosiped sürmək ilk növbədə ayaqlarınızda, ombalarınızda və mədənizdə əzələ sıxlığını artırmağa kömək edir, həm də qol, çiyin və qarın əzələlərini gücləndirir, bu nahiyələrdəki əzələlər birbaşa hərəkətdə iştirak etməsələr də, məşq zamanı daim gərgin olurlar.

Velosiped sürmək ürəyi, ağciyərləri və əzələləri gücləndirir, həmçinin bədəndə qan və oksigen axınını sürətləndirir. Hər gün yarım saat velosiped sürən adamların yaddaş və beyin funksiyaları yaxşılaşır, qan təzyiqi normallaşır, keyfiyyətli yuxu yatır, balanslaşdırılmış qan şəkəri və güclü immuniteti olur. Velosiped sürmək bütün bədəni aktiv saxlayır ki, bu da yaxşı əhval-ruhiyyədə, stressiz və enerjili olmaq deməkdir.

Dünyada ən çox velosiped sürülən ölkə Niderlanddır. Bu ölkə həm velosiped infrastrukturuna, həm də velosiped sürmə mədəniyyətinə görə dünyada liderdir. Əhalinin təxminən 90%-dən çoxu mütəmadi olaraq velosipeddən istifadə edir. Maraqlı burasıdır ki, bu ölkədə velosipedlərin sayı əhali sayından çoxdur. Niderlanddakı velosiped yollarının uzunluğu on minlərlə kilometrdir, şəhərlər sakit və tıxacsız olur, çünki əksəriyyət velosipedlə hərəkət edir. Həmçinin avtomobillərin atmosferə vurduğu zərər bu ölkədə minimumdur.

"Velosiped dostu olan şəhərlər" adını ala bilmək üçün velosiped yollarının keyfiyyəti, təhlükəsizlik, infrastruktur və velosiped sürməyə olan mədəni yanaşma əsas götürülür. Dünyada ən çox tanınan velosiped dostu şəhərlərdən birincisi Amsterdamdır (Niderland). Bu şəhər velosiped mədəniyyətinin simvolu sayılır. Şəhərin 60%-dən çox sakini gündəlik nəqliyyat vasitəsi kimi velosipeddən istifadə edir. Kopenhagen (Danimarka) də velosiped sevənlərin çox yaşadığı şəhərdir. Bu şəhərdə velosiped yolları geniş və təhlükəsizdir. Niderlandın Utrecht şəhəri velosiped parklarının və yollarının sayı baxımından lider şəhərlərdəndir. Belçikada Antverpen şəhərinin mərkəzində avtomobil hərəkəti demək olar ki yoxdur, hər kəs velosipeddən istifadə edir.

Strasburq Fransada velosipedlə hərəkət etmək üçün ən yaxşı şəraitə malik şəhərlərdən biridir. İsveçin Malmö şəhəri də keyfiyyətli velosiped yolu planlaması və dayanıqlı nəqliyyat siyasəti ilə tanınır. Ameriakanın bir çox şəhəri də velosiped infrastrukturunda yaxşı göstəricilərə malikdir.

Azərbaycanda velosiped yolları ilə bağlı vəziyyət adıçəkilən ölkələrdəki kimi qənaətbəxş deyil. Lakin yaşıl dünya naminə qarşısına qoyduğu öhdəliklərə görə, Azərbaycan, velosipedi bir nəqliyyat vasitəsi kimi stimullaşdırmağa çalışır. Doğrudur, velosiped yoları ölkəmizdə hələ inkişaf mərhələsindədir, paytaxtda başlanan bu infrastruktur hələ mərkəzi yollarda yaradılıb. Dənizkənarı Milli Park boyunca xüsusi velosiped yolları çəkilib ki, bu yol həm yerli sakinlər, həm də turistlərin velosipedi təhlükəsiz şəraitdə sürməsi üçün uyğundur.

Həmçinin Neftçilər prospektində və Xaqani küçəsində velosipedçilər üçün bəzi zolaqlar ayrılıb. Yüksək səviyyədə təşkil edilənm "Bakı Marafonu" və "Bakı Velosiped Günü" kimi tədbirlər vasitəsilə ölkə əhalisi velosipeddən istifadə təşviq olunur. Paytaxt Bakıdan əlavə Gəncə, Sumqayıt və Şəki kimi şəhərlərdə bəzi parkların ərazisində, habelə mərkəzi küçələrdə velosiped yolları yaradılıb. Qeyd etməliyik ki, bu infrastruktur hələ ilkin səviyyədədir, velosiped yolarının genişləndirilməsi və istifadə üçün əlverişli hala gətirilməsi üçün hər çox iş görülməlidir.



Azərbaycanda velosiped sürənlərin sayına gəlincə, qeyd etmək lazımdır ki, son illərdə bu rəqəm əhəmiyyətli dərəcədə çoxalıb. 2024-cü ilin son 4 ayında 460 min nəfər insan velosiped və skuterdən istifadə edib. Rəqəmlərə görə, 800 min dəfə velosiped və skuter sifarişi edilib. Doğrudur, rəqəmin böyük nisbətini skuter icarəsi təşkil edir, lakin bu nəqliyyat vasitəsi də təbiət dostu olduğuna görə daha çox istifadəsi yaxşı haldır.

Bakıdakı Velopark Azərbaycanın açıq səma altında yerləşən ən böyük idman qurğularından biridir. Velosiped idmanının BMX növü üzrə 2018-ci il dünya çempionatının keçirildiyi trek də Veloparkda yerləşir. Burada ilk ağaclar ötən əsrin 70-ci illərinin əvvəllərində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin şəxsi təşəbbüsü ilə əkilib.

Respublika Olimpiya Ehtiyat Qüvvələri İxtisaslaşdırılmış Uşaq-Gənclər Velosiped Məktəbi (ROEQİUGVM) də Azərbaycanda velosiped idmanının inkişafında rolu olan məktəbdir. Məktəb 1984-cü ildə yaradılıb və Respublika Velotrekinin bazasında fəaliyyət göstərir. Burada velosiped idmanı ilə məşğul olan yeniyetmə və gənclər məşqləri həm açıq səma altındakı velotrek meydanında, həm Veloparkda, həm də ölkə daxilində şose yollarında keçirlər.

Həmçinin, "Təhsil" Respublika İdman Mərkəzinin nəzdində fəaliyyət göstərən 7 saylı İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq Gənclər İdman Məktəbi (7İOEUGİM) 1969-cu ildə yaradılıb. Məktəbin velosiped idmanı ilə məşğul olan idmançıları Əhmədli qəsəbəsində yerləşən 7İOEUGİM-ə məxsus velobazada, Respublika Velotrekində və şoselərdə məşq keçirlər.

Ölkəmizdə həmçnin paravelosipedçilər birliyi də var. "Azərbaycan Əlil Velosipedçilərə Dəstək" İctimai Birliyi 27 dekabr 2018-ci ildə dövlət qeydiyyatına alınıb. Təsisçilər 1-ci qrup fiziki məhdudiyyətli əlil arabası istifadəçisi Amid Həsənquliyev və 1-ci qrup Qarabağ qazisi, əlil arabası istifadəçisi Bəhlul Əliyevdir.

Tədqiqatlar göstərir ki, velosiped sürmək idman məqsədi ilə yeriməkdən daha faydalıdır. Araşdırmalara görə, velosiped sürmək qarın piylərini əridən ən yaxşı idman növüdür. Həftədə ən az 3 gün velosiped sürmək, nizamlı rejim və qidalanmaya diqqət yetirməklə, qarındakı artıq çəkidən qurtulmaq mümkündür. Ümumiyyətlə, sistemli olaraq pedal çevirmək insana tempindən və çəkisindən asılı olaraq saatda orta hesabla 550 kalori itirməyə kömək edir. Müntəzəm olaraq 45 dəqiqəlik velosiped idmanı və balanslı qidalanma ilə ayda 2-3 kilo arıqlamaq mümkündür. Qısası, həm yaşlı dünyanı qorumaq, həm də sağlam yaşlanmaq üçün velosiped sürmək şərtdir.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
3 iyun
2025-ci il

# “Zəhəri çıxarmaq düzgün deyil"



***“Zəhərli heyvanların (ilan, əqrəb və s.) sancması və ya dişləməsi zamanı bədənə toksinlər (zəhərlər) daxil olur. Bu vəziyyət insan üçün çox təhlükəli ola bilər". Bunu SİA-ya açıqlamasında tibb elmlər doktoru, professor Adil Qeybulla söyləyib. Onun sözlərinə görə, xüsusilə ilan və əqrəb sancmaları zamanı düzgün müdaxilə çox vacibdir: "İlan sancması zamanı bunları etmək lazımdır:***



## HƏKİM İZAH ETDİ

**1. Əvvəlcə sakit qalmaq lazımdır.**

Çox adam panikaya düşüb qaçmağa başlayır. Bu çox təhlükəlidir. Qaçdıqca ürək daha tez döyünür və zəhər daha sürətli yayılır. İlan sancan şəxs hərəkətsiz qalmalı və sakitliyini qorumalıdır.

**2. İlanın növü vacibdir.**

Azərbaycanda əsasən çöl əfisi və Zaqafqaziya gürzəsi zəhərlidir. Digər ilanlar adətən zəhərsizdir. Əgər mümkündürsə, ilanın şəkli çəkilsin və ya təsviri yadda saxlanılsın ki, həkimlər uyğun dərman (antidot) seçə bilsin.

**3. Antidot (zəhər əleyhinə dərman) lazımdır.**

Zəhərli ilan sancıbsa, xəstə tez bir zamanda xəstəxanaya çatdırılmalıdır. Orada ona antidot vurulmalıdır.

**4. Zəhəri çıxarmaq düzgün deyil.**

İlan dişlədiyi yeri kəsmək, sorub çıxarmaq, üzərinə kimyəvi maddə tökmək olmaz. Ən yaxşısı, dişlənmiş yeri yuxarıdan bint və ya kəmərlə yüngül sıxmaqdır ki, zəhər yayılmasın. Amma bu da çox sıx olmamalıdır, qan tam dayanmasın.

**5. Zəhərin təsiri.**

Azərbaycandakı zəhərli ilanların zəhəri əsasən qana təsir edir (hematotoksik). Qan laxtalanmır, daxili qanaxmalar ola bilər. Başqa ölkələrdəki ilanlar sinir və ürək sisteminə də təsir edə bilər (neurotoksi, kardiotoksi), amma bizdə əsas təhlükə qandadır.

**6. Zəhərli və zəhərsiz ilanları necə ayırmaq olar?**

Zəhərli ilanlar dişlədikdə iki dərin diş izi qalır. Zəhərsiz ilanlar isə adətən çoxlu xırda izlər qoyur və dərinə getmir.

İlan və əqrəb sancmaları ciddi məsələdir. Əsas odur ki, panikaya düşməyin. Hərəkətsiz qalın, mümkünsə, ilanı tanımağa çalışın, ən əsası dərhal həkimə müraciət edin!”

***Söylü Ağazadə***

## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. **Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
2. **Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694**
3. **Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
4. **Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
5. **Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
6. **Ziya LTD – 0124977696, 0503067744**

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Çimərlik mövsümünə hazırıqmı?

***Çimərlik mövsümünün rəsmi açılış tarixi ilə bağlı konkret bir tədbir və ya mərasim nəzərdə tutulmayıb. SİA-nın əldə etdiyi məlumata görə, Azərbaycanda çimərlik mövsümünün başlanğıcı hava şəraitinə uyğun olaraq, qeyri-rəsmi şəkildə formalaşır. Yəni, havalar istiləşdikcə insanlar dənizə üz tuturlar.***



## QURUMDAN AÇIQLAMA

Məsələn, son günlərdə havanın isti keçməsi nəticəsində çimərliklərdə insanların sayında artım müşahidə olunub, lakin hava şəraiti dəyişdikdə, çimərliklərdəki aktivlik də azalır.

Bakıda 6 ictimai çimərlik mövcuddur və bu ərazilərdə artıq müvafiq təmir və təmizləmə işləri başa çatdırılıb. Bundan əlavə, bir sıra özəl çimərliklər və istirahət mərkəzləri də fəaliyyət göstərir. Bu çimərliklərin bir qismi aidiyyəti qurumlar – məsələn, rayon icra hakimiyyətləri və ya digər müvafiq orqanlar tərəfindən nəzarətdə saxlanılır. Onlarla bağlı daha ətraflı məlumatı rəsmi qurumların açıqlamalarından əldə etmək mümkündür.

***Xeyrənsə Piriyeva***

# Neymar əl ilə qol vurdu, meydandan qovuldu!



***“Santos"un futbolçusu Neymar "Botafoqo" ilə matçda qırmızı vərəqə alması haqda danışıb. 33 yaşlı forvard görüşdə topu əl ilə qapıya göndərib. Nəticədə Neymar 2-ci sarı vərəqə ilə cəzalandırılaraq meydandan qovulub.***

Braziliyalı futbolçu isə açıqlamasında hakimin qərarı ilə razılaşmadığını deyib: “İkinci sarı vərəqə göstərilməli idi. Bu, doğrudur amma birinci... Hakim sadəcə gülündür. İlk qayda pozuntumda dərhal sarı vərəqə göstərdi. Futbolda həqiqətən də pis hakimlər var... Bu, sadəcə mənim fikrimdir. Xahiş edirəm, məni bir daha cəzalandırmayın”.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**